RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 41 (10061) 4 mart 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Birinci vitse-prezident Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı paylaşım edib

"Uca Allah mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin! Od çərşənbəniz mübarək!"



https://www.instagram.com/p/DVbmxEjDMqX/?img_index=1&igsh=MWpkMXA0MXJ0M2twNg%3D%3D




## Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlıq mövcuddur

### Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib

**Martın 3-də Bakı Konqres Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycanın energetika naziri **Pərviz ŞAHBAZOV** dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən sizi "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında salamlayıram. Bizim bu toplantımız uğurlu işimizdə bərpaolunan enerjinin tarazlı şəkildə inkişaf etdirilməsi və enerji bağlantılarının regional səviyyədə daha da şaxələndirilməsində göstərdiyimiz səylərin mühüm mərhələsidir.

Mən öz dərin təşəkkürümü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ifadə edirəm ki, O, bu uğurun arxasında dayanan əsas şəxsdir və bu işlərə rəhbərlik etmişdir. İndi isə mən böyük məmnunluq hissilə əsas çıxış üçün sözü verirəm cənab Prezidentə.

❖ ❖ ❖

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

2-3



## Düşmənlərimiz İLHAM ƏLİYEVƏ nələri bağışlaya bilmirlər?!

Azərbaycan dünyada yeganə ölkədir ki, təkbaşına müharibə apararaq dünyanın güclü dövlətləri tərəfindən hərtərəfli müdafiə olunan, silahlandırılan, maliyyə təminatı göstərilən düşmənini darmadağın edib qarşısında diz çökdürmüş, təslim aktını imzalatdırmışdır!

Azərbaycan yeganə dövlətdir ki, təkbaşına separatizmə qalib gəlmiş, onun bütün "təsisatlarını" ləğv etmiş, kökünü torpağından çıxararaq sərhədlərindən kənara tullamışdır!

Azərbaycan yeganə dövlətdir ki, ərazisində bir nəfər belə separatçı və əcnəbi əsgər mövcud deyil!

Azərbaycan yeganə dövlətdir ki, uzun illər ölkə ərazisində separatçılıqla məşğul olan, terrorçu dəstələri yaradıb saxlayan, dinc əhaliyə divan tutaraq kütləvi qırğınlar, soyqırımları törədən qondarma separatçı qurum rəhbərlərini, hərbçilərini ədalət məhkəməsində mühakimə edərək layiq olduqları cəzanı vermişdir!

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, müdrik və uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur!

Bu gün cənab İlham Əliyev möhtəşəm quruculuq işləri ilə məşğuldur.

Qarabağda və Şərqi Zəngəzurda görünməmiş vüsətlə bərpa və quruculuq işləri gedir, torpağın əsl sahibləri yurdlarına dönərək xoş və xoşbəxt günlərini davam etdirirlər.

Bu gün İlham Əliyev Avropada böyük hörmət və rəğbətlə qarşılanan, dünyanın ən mötəbər tədbirlərinə arzuolunan qonaq kimi dəvət olunan, çıxışları diqqət və maraqla dinlənilən siyasi liderlərdəndir.

İlham Əliyev transmilli layihələri gerçəkləşdirərək Azərbaycanı dünyada ən etibarlı və arzuolunan tərəfdaşa çevirmişdir!

7

## İkitərəfli münasibətlərimiz qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir

### Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri xanım İliyana Yotovaya

Hörmətli xanım Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Bolqarıstan arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi bizi sevindirir. İkitərəfli münasibətlərimiz qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir, müxtəlif sahələri əhatə edən əməkdaşlığımız gündən-günə genişlənir və yeni məzmunla zənginləşir.

Yüksəksəviyyəli siyasi əlaqələrimiz iqtisadi-ticari, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığımız üçün yaxşı zəmin yaradır. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda nümayiş etdirdiyimiz fəal işbirliyi təqdirəlayiqdir.

Bu yaxınlarda Münxendə Sizinlə görüşümüzü və Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişaf perspektivlərinə dair apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, mövcud imkanlardan yararlanaraq dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bolqarıstan xalqına daim rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

## Rəqəmsallaşma vahid mərkəzdən idarə olunacaq



Ölkəmizin Birinci vitse-prezidentinin milli iqtisadiyyatın rəqəmsal modelə keçidi kimi həyati məsələyə birbaşa başçılıq etməsi Azərbaycanı regionun texnoloji mərkəzinə çevirəcək. Bu, həm də qlobal süni intellekt nəhəngləri, xüsusən ABŞ şirkətləri üçün həlledici siqnaldır. Yüksək etimada və beynəlxalq şöhrətə malik olan Mehriban xanım Əliyevanın şuraya rəhbərliyi dünyanın işgüzar dairələri və qlobal texnologiya şirkətləri üçün ən yüksəksəviyyəli siyasi zəmanət və investisiya risklərinin minimuma endirilməsi deməkdir. Nüfuzlu rəhbər faktoru həm xarici, həm də yerli sahibkarlar üçün təhlükəsizlik lövbəri funksiyasını yerinə yetirir, layihələrin iqtisadi səmərəliliyini və cəlbediciliyini artırır.

Şuranın fəaliyyəti sayəsində dövlət menecmentinin effektivliyi yüksələcək, cəmiyyətin bütün təbəqələri üçün xidmətlərə bərabər və şəffaf çıxış imkanı yaranacaq.

10

# Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlıq mövcuddur

## Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib

### Prezident İlham Əliyevin çıxışı

- Xanımlar və cənablar, sabahınız xeyir.

İlk növbədə bütün qonaqlarımızı salamlayıram. Cənab komissarı xüsusi salamlamaq istəyirəm, çünki o, indi gəlib və istirahətə ehtiyacı var. Ancaq buna baxmayaraq, o, bizimlə birlikdədir. Biz onun Brüsseldə iş qrafikinin sıx olmasına baxmayaraq, bu gün bu vacib tədbirdə iştirak etməsini yüksək qiymətləndiririk. Sizin iştirakınız Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlığı bir daha nümayiş etdirir.

Hər zaman olduğu kimi, biz Məşvərət Şurasının illik iclasında ötən iclasdan bəri görülmüş işləri nəzərdən keçirir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlarımızı planlaşdırırıq.

Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq.

Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması, həqiqətən də, gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq. Hər dəfə biz məhz irəliləyişdən danışırıq.

Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir.

Sonuncu dəfə çıxışım zamanı qaz təchizatının coğrafiyasının genişləndirilməsi ilə bağlı planlarımıza toxunmuşdum. Gördüyünüz kimi, bu planlar artıq reallaşdırılıb. Hesab edirəm ki, digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır.

Beləliklə, Suriyaya 1,5 milyard kubmetr həcmində Azərbaycan qazının tədarükü vasitəsilə biz əhalinin daha yaxşı qorunmasına, biznes fəaliyyəti üçün daha geniş imkanların yaranmasına və müəssisələrin normal fəaliyyətinin təmin edilməsinə töhfə verdik. Çünki hamıya yaxşı məlumdur ki, elektrik enerjisi olmadan heç bir inkişaf əldə etmək mümkün deyil. Bu, həm Suriya, həm region, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki qaz təchizatının şaxələndirilməsi hər bir ölkə kimi, bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Biz qaz qəbul edən ölkələrin şaxələndirmə ilə bağlı üzləşdikləri çətinlikləri anlayırıq. Lakin eyni zamanda istehsalçı ölkələr üçün də şaxələndirmə mühüm amildir.

Yenə də görürük ki, istehsalçı Azərbaycan, tranzit ölkələr və istehlakçılar arasında əməkdaşlıqda müsbət dinamika müşahidə olunur. Hesab edirəm ki, məhz bu birlik, birgə maraqlar və qarşılıqlı fayda prinsipi on ildən artıq davam edən uğurlu yolumuzun əsas amilidir.

Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün " Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır.

Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. Hasilatın ötən il başlanacağı gözlənilirdi, lakin bu, baş vermədi. Bununla belə, hasilatın məhz cari ildə başlanacağına əminik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir.

Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağımızla bağlı olaraq deyə bilərəm ki, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək. Daha əvvəl qeyd etdiyim kimi, bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir.

Artıq bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsi də "yaşıl gündəlik"dir və bu istiqamətdə də müsbət nəticələr barədə məlumat verə bilərik. Cari ilin yanvarında regionda indiyədək ən böyük külək-elektrik stansiyasının - 240 meqavat gücündə obyektin açılışı olub. Layihə "ACWA Power" tərəfindən maliyyələşdirilib və həyata keçirilib.

Bu, bizim artıq malik olduğumuz potensiala əlavə edilən yeni "yaşıl enerji" mənbəyidir. 2023-cü ildə "Masdar" şirkəti 230 meqavat gücündə Günəş-elektrik stansiyası inşa edib. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışını gözləyirik. Burada bizdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcuddur. Yerli şirkətlər dedikdə, əlbəttə ki, SOCAR-ı nəzərdə tuturam. Lakin təkcə SOCAR yox, həmçinin özəl şirkətlər alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıb, çünki burada böyük potensial və bazarda tələbat var.

Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir.

Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır.

Vurğulamaq istəyirəm ki, bunlar anlaşma memorandumları deyil, müqavilələrdir, beləliklə, tərəflərin müqavilə öhdəlikləri var. Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 qiqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik.

Bütün bunlar mənim və ABŞ-nin Vitse-prezidenti tərəfindən imzalanan Amerika Birləşmiş Ştatları və Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasından sonra artıq üzərində iş gedən layihələrdir. Bu xartiya bir çox sahələri, o cümlədən süni intellekt, enerji, bağlılıq və bir çox digər məsələləri əhatə edir.

Dünyanın ən qüdrətli dövləti Amerika Birləşmiş Ştatlarının strateji tərəfdaşımız kimi çıxış etməsini nəzərə alaraq bizim planlarımızın gerçəkləşməsi tamamilə real görünür. Biz hidroelektrik stansiyalarına sərmayə yatırırıq. Bu layihələr Ermənistanın işğalından azad edilmiş ərazilərdə icra olunur. Hələ ki, 307 meqavat gücündə hidroelektrik stansiyalar artıq sistemimizə qoşulub. Planlarımız bunu 2-3 ilə təqribən ikiqat artırmaqdır. Bu, bizə əlavə potensial və ucuz enerji verəcək.

Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, - biz hazırda bu məsələni araşdırırıq, - qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir. Müzakirə etdiyimiz məsələyə qayıdaraq qeyd edim ki, hətta COP29 çərçivəsində - bu iqlim konfransına evsahibliyi etdiyimiz zaman da bildirmişdim, baxmayaraq ki, o dövrdəki tendensiya ilə tam uyğun olmadığını anlayırdım, faydalı qazıntı yanacaq növlərini nəzərə almamaq mümkün deyil. Əgər siz qazıntı yanacağını nəzərə almırsınızsa, bu o deməkdir ki, siz xəyallarla yaşayırsınız.

Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin eyni zamanda biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin səylərinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, bütün bu məsələlər bugünkü tədbirdə müzakirə olunacaq və biz yaxşı həll yolları tapacağıq.

Həmçinin vurğulamaq istərdim ki, Azərbaycan enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu da oynayır. Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik.

Avropa enerji bazarında səylərimizlə bağlı məsələlərə gəlincə, düşünürəm auditoriyanın bilməyi vacib olardı ki, biz bu yaxınlarda Türkiyədə ən böyük elektrik stansiyalarından birini əldə etmişik - 870 meqavat gücündə. Ötən ay Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalandı. Beləliklə, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, "Cənub qaz dəhlizi" ilə məhdudlaşmır.

Həmçinin bizim üçün mühüm nailiyyətlər, mühüm amillər arasında İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin əldə olunması var. Əgər Egey dənizinin Türkiyə sahillərində artıq sahib olduğumuz 12 milyon tonluq neftayırma müəssisəsini də əlavə etsək, ümumilikdə Aralıq və Egey dənizlərində 22 milyon ton neftayırma potensialımız olacaq ki, bu da öz növbəsində sözsüz ki, neft məhsullarının davamlı təchizatını təmin etməyə kömək edəcək və minlərlə yanacaqdoldurma stansiyası bu razılaşmanın bir hissəsidir.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, çox məşğul olacaqsınız, sadəcə, başa düşülməsi mühüm olan əsas məqamları, planlarımızı, görülmüş işləri və görülməsi planlaşdırılan işləri vurğulamaq istədim. Əminəm ki, iclas hər zaman olduğu kimi səmərəli, konstruktiv və nəticəyönümlü olacaq.

Təşəkkür edirəm.

*Ardı 3-cü səh.*






# Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlıq mövcuddur

## Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib

*Əvvəli 2-ci səh.*




**Pərviz ŞAHBAZOV:** Zati-aliləri cənab Prezident, biz Sizə olduqca minnətdarıq. Siz hərtərəfli çıxış etdiniz. Əlbəttə ki, Məşvərət Şurası Sizin müdrik rəhbərliyinizlə təsis edilmişdir və artıq mühüm bir platformaya çevrilib. Siz də çıxışınızda qeyd etdiniz ki, şaxələndirmə, sərmayələrin proqnozlaşdırılması və tərəfdaşların fəaliyyəti bağlantılar üçün çox vacibdir. Biz Sizin davamlı dəstəyinizi yüksək dəyərləndiririk və Sizə minnətdarlığımızı bildiririk.

İndi Sizin icazənizlə, mən sözü Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenə verəcəyəm. Azərbaycanın əsas enerji layihələri Avropaya yönəlib və onlar Azərbaycanla Avropa İttifaqının enerji üzrə strateji tərəfdaşlığını şərtləndirir.

Cənab Yorgensen, söz sizindir.

❖ ❖ ❖

### Komissar Dan Yorgensenin çıxışı

- Sağ olun, cənab nazir.

Cənab Prezident, Zati-aliləri, xanımlar və cənablar.

Mən bu gün burada olmaqdan çox məmnunam. Burada - Bakıda səmimi qəbula görə dərin təşəkkürümü bildirirəm. Bu gün dəvətimizi qəbul etdiyinizə görə hamınıza minnətdaram.

Belə bir kəlam var: "Atalar üçdən deyib". Bu gün üçüncü ayın üçüncü günüdür. Ona görə düzgün olardı, elə mən də müzakirəmizi üç əsas hissəyə bölüm.

Əvvəlcə Avropa İttifaqının enerji təhlükəsizliyi haqqında danışaq. 2020-ci ildə Azərbaycan qazı "Cənub qaz dəhlizi" ilə Avropaya getdi. 2022-ci ildə bu dəhlizin strateji əhəmiyyəti tam aydın şəkildə üzə çıxdı. Rusiya təcavüzkar müharibəsinə başladı, enerjini silaha çevirdi və Avropa İttifaqı öz enerji təchizatını şaxələndirmək qərarına gəldi. Rusiyadan gələn enerjini əvəz etmək üçün biz ən etibarlı və inanılan tərəfdaşlarımıza üz tutduq və Azərbaycan onların arasında əsas götürüldü. Həmin vaxtdan etibarən biz "Cənub qaz dəhlizi" vasitəsilə təbii qazın təchizatını xeyli artırdıq. 2020-ci ilin sonundan Xəzərdə hasil edilən qazın 50 milyard kubmetrdən çox həcmi Trans-Adriatik Boru Kəməri ilə artıq Avropaya çatdırıldı. Xəzər qazının köməyi ilə Avropa İttifaqının Rusiya qazından asılılığı 2022-ci ildəki ümumi idxalda 45 faizdən 2025-ci ildə 12 faizə düşdü. Həmin rəqəmlər azalmaqda davam edir. İki ildən az müddətdə hər il hələ də idxal etdiyimiz rus qazının qalan 35 milyard kubmetri bazarımızdan çıxarılacaqdır. Həmin qaza görə Avropa İttifaqının hər il sərf etdiyi 10 milyard avro nə Rusiyanı, nə də ki onun Ukraynaya qarşı təcavüzünü artıq maliyyələşdirməyəcək.




Rusiya qazından asılılığımızı davamlı şəkildə azaltdığımız dövrdə Azərbaycanla tərəfdaşlığımızın vacibliyi yalnız artacaq, Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək. Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə təxminən 24 milyard avro qazanıb. Bugünkü səfərin mövqeyi açıq bəyan etmək fürsətidir: Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq.

Öz növbəsində Avropa İttifaqı yaxın gələcəkdə Azərbaycan qazının etibarlı müştərisi olaraq qalacaq və Azərbaycan iqtisadiyyatında struktur transformasiyaya təkan verəcək.

İndi isə icazə verin, ikinci hissəyə keçim. Enerji təhlükəsizliyinin gələcəyi təmiz keçid və elektrikləşmədədir. Avropa İttifaqında biz rekord templərlə bərpaolunan enerji imkanlarını inkişaf etdiririk. Məsələn, 2025-ci ildə biz elektrik enerjisinin 45 faizini bərpaolunan mənbələrdən almışıq və Avropa İttifaqında elektrik enerjisinin satış qiyməti əvvəlki ilə müqayisədə sabit qalıb.

Bilirəm ki, Azərbaycan yerli bazarda ənənəvi yanacağın istehlakını azaltmaq üçün həmçinin elektrikləşməni nəzərdə tutur və beləliklə, öz gəlirlərini artırmaq istəyir. Bundan əlavə bilirəm ki, məhz bu elektrikləşdirmə potensialı bütün regionda böyükdür, bu, xüsusən də yerli səviyyədə və sənayedə hiss olunur.

Türkiyədə COP31 tədbirinin keçirilməsinə gəldikdə, icazə verin, bir daha qeyd edim ki, elektrikləşmənin gündəlikdə mühüm məsələ olduğu və konkret sahələrin müəyyənləşdirilməsi vacib hesab ediləcəkdir. İcazə verin, Avropa İttifaqının məhz həmin bu sənaye üzrə mövqeyini bildirim. Avropa İttifaqı bu gün məhz təmiz ekosistemin yaradılmasına çalışır. Məhz texnologiyaları tətbiq edir, hidrogen və bərpaolunan enerjiyə üz tutur. Burada rəqəmsal və kibertəhlükəsizlik həll variantları da var. Əlbəttə ki, biz bu sahədə potensialdan istifadə etmək, o cümlədən özəl sektorun kapitalını geniş şəkildə cəlb etmək üçün məhz şəffaf və rəqabətli təminat sxemlərindən istifadə etməli, eyni zamanda daha çox tənzimləmə və proqnozlaşdırmanı təmin etməliyik. Beləliklə, Avropa İttifaqının şirkətləri bundan sonra da məhz maliyyə imkanlarını, texnologiyalarını, həmçinin kibertəhlükəsizlik və sistemin etibarlığı sahəsində yüksək standartlarını tətbiq etməyə hazırdır.

Beləliklə, icazə verin, indi regional bağlantılara keçim. Bu gün məhz düşünürük ki, bununla bağlı gündəlik çox böyükdür və biz Qara dəniz regionunda, Türkiyədə və Cənubi Qafqazda əlavə addımlar atmaq istəyirik. Əlbəttə ki, burada üç əsas məsələ nəzərdə tutulur. Birincisi, biz ümumi strateji çərçivəni formalaşdırırıq, ikincisi, islahatları prioritetləşdiririk və üçüncüsü, sərmayə siyasətini formalaşdırırıq. Burada həmin gündəliyin həyata keçirilməsində qarşılıqlı maraq var. Regional elektrik baxımından bağlantılar enerji sistemindəki xərclərin azaldılmasına, bərpaolunan enerji üçün inteqrasiya imkanlarının yaradılmasına və ikitərəfli qaydada elektrik enerjisinin nəqlinə imkan yaradır. Beləliklə, biz regional qaydada həmin elektrik enerjisinin ticarətini təmin edəcəyik və elə edəcəyik ki, regional səviyyədə elektrik enerji mənbələri tarazlı şəkildə planlansın.

Bağlantılara gəldikdə, bunlar olduqca vacibdir. Çünki burada infrastruktur və bağlantılar strukturu lazımdır. Bu baxımdan inteqrasiya və düzgün idarəçilik çərçivəsi də vacibdir. Avropa İttifaqı bundan sonra da əlavə imkanları araşdırmağa hazırdır ki, enerji bağlantıları güclənsin və regionda enerji keçidi baş versin, beləliklə, zəmanətlər və maliyyə alətləri təmin edilsin. Əlbəttə ki, özəl sektorun fəal iştirakı çox vacib olacaq. Avropa İttifaqının şirkətləri bundan sonra həm ekspert bacarıqları ilə, həm də innovasiyaları və standartları ilə yardım etməyə hazırdır. Avropa İttifaqı eyni zamanda tərəfdaş ölkələrinə regionda kömək edəcək ki, enerji tənzimləmələri daha da güclənsin. Bu baxımdan onlar bu yaxınlarda Avropa İttifaqının məhz enerji proqramının üçüncü fazasına başlayıblar ki, bununla fəaliyyət öz texniki dəstəyini həm ikitərəfli, həm də regional səviyyədə almışdır.

Çox yaxşı haldır ki, məhz transsərhəd elektrik interkonnektorları ilə bağlı planlar artıq formalaşıb, son illər ərzində həyata keçirilir və bir sıra təşəbbüslər var. Həmin təşəbbüslər üzrə layihələr məhz iqtisadi və sistem inteqrasiyası təhlili əsasında həyata keçirilə bilər. Mən səmimiyyətlə arzu edirəm ki, texniki əsaslandırma işləri tezliklə başa çatdırılsın.

Hörmətli qonaqlar, əziz dostlar, yekun olaraq bildirmək istəyirəm, icazə verin, bir daha bu gün bizi burada qəbul etdiyinə görə Zati-aliləri Prezident İlham Əliyevə təşəkkürümü bildirim. Təşəkkür edirəm ki, Siz bu müzakirələrin dərinləşdirilməsi və münasibətlərimizin gücləndirilməsi üçün fürsət yaradırsınız. Belə bir çətin dövrdə münasibətlər heç vaxt olmadığı qədər vacibdir. Cənab Prezident, biz bu baxımdan ötən illə müqayisədə indi daha çətin dövrdəyik. Əlbəttə ki, bu məqsədləri nəzərə aldıqda mən Sizə diqqətinizə görə təşəkkürümü bildirirəm və tədbirə məhsuldar müzakirələr arzulayıram.

❖ ❖ ❖

**Pərviz ŞAHBAZOV:** Komissar Yorgensen, təhlil xarakterli çıxışınıza görə minnətdarıq. Əlbəttə, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji dialoqu bundan sonra da davam edəcək və hərtərəfli nəticələrini verəcək.

Bununla da ilk sessiyamız başa çatır.

Cənab Prezident, çox sağ olun ki, bu gün Siz burada bizimləsiniz.

❖ ❖ ❖

Qeyd edək ki, toplantıya Azərbaycan və Avropa daxil olmaqla 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, həmçinin 49 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak edirlər.

Açılış sessiyasından sonra toplantı Nazirlər sessiyası, "Cənub Qaz Dəhlizi sessiyası: "Cənub qaz dəhlizi"ndə davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl enerji layihələri" üzrə plenar sessiyalarla davam edir.

Məşvərət Şurası çərçivəsində Azərbaycan-Avropa İttifaqı "Yaşıl Bağlantı" üzrə İnvestisiya "dəyirmi masa"sı keçiriləcək.

Tədbirin sonunda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının yekunlarına dair mətbuat konfransı təşkil olunacaq.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından keçirilir.

# Azərbaycan hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfə verir

## Prezident İlham Əliyev Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak edən Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Dan Yorgensen dövlətimizin başçısının "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının açılışındakı çıxışının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Dan Yorgensen bugünkü tədbirin çox mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ölkəmizlə tərəfdaşlığın onlar üçün önəm kəsb etdiyini bildirdi və onu genişləndirməkdə maraqlı olduqlarını vurğuladı. O, həyata keçirilən əməkdaşlığa görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun ötən il ölkəmizə səfərlərinə toxunaraq, heyətlərimizin fəal işləməsini enerji və bağlılıq məsələlərində əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfdə olan iradənin göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanın, xüsusən hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu, enerji sahəsində ölkəmizin Avropa bazarında ixrac coğrafiyasının genişləndirilməsi və təbii qaz, "yaşıl enerji" ilə bağlı əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

# Rusiya Hökumətinin sədri vətəndaşlarının İrandan təxliyəsinə göstərdiyi yardıma görə Azərbaycana təşəkkür edib





Martın 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan-Rusiya ticari-iqtisadi əməkdaşlığının aktual məsələləri müzakirə edilib. Ticarət dövriyyəsinin artımında müsbət dinamika qeyd olunub. Qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsi məsələlərinə baxılıb. Söhbət əsnasında Rusiya tərəfi mürəkkəb regional vəziyyət şəraitində Rusiya Federasiyası vətəndaşlarının İran İslam Respublikasından operativ şəkildə təxliyə edilməsinə göstərdiyi yardıma görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

Hökumət başçıları Rusiya Hökuməti sədrinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətinin dünən Bakıya etdiyi səfərin vacibliyini vurğulayıb, bu ilin aprel ayında Azərbaycanda İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi barədə əldə olunmuş razılaşmanı alqışlayıblar.

Fürsətdən istifadə edərək Ə.Əsədov M.Mişustini 60 illik yubileyi münasibətilə təbrik edib, ona gələcək dövlət fəaliyyətində uğurlar arzulayıb.

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi**
Rəhimova Aybəniz Məhəmməd qızı

**inzibati məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi**
Bayramova Cahan Gəray qızı

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Kəngərli Rayon Məhkəməsi**
Rzazadə Türkan Əvəz qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Nəsibov Elçin Aftandil oğlu
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Salmanova Gülnaz Elçin qızı
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Dünyamalılı İradə Şəms qızı
Qasımov Rüstəm Sabir oğlu
**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Göyüşova Günay Vidadi qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Türkmənli Lamiyə Elman qızı
**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Maqsudov İsa Sabir oğlu
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Qocayev Orxan Ələddin oğlu
**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**
Vəliyeva Günay Rahim qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Camalov Əli Elmar oğlu

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Qəniyev Sabir Ramazan oğlu
**Ağdaş Rayon Məhkəməsi**
Vəliyeva Səkinə Nail qızı
**Astara Rayon Məhkəməsi**
Quliyev Emin Əliağa oğlu
**Bərdə Rayon Məhkəməsi**
Məmişov Yasin Əhməd oğlu
**Cəlilabad Rayon Məhkəməsi**
Əliyev Səməd Eyyub oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Abbasov Hüseyn Eldar oğlu
**Goranboy Rayon Məhkəməsi**
Yusifov Elnur Gündüz oğlu
**Göygöl Rayon Məhkəməsi**
Səfərova Aynur Elman qızı
**Xaçmaz Rayon Məhkəməsi**
Qayıbov Aqşin Mehman oğlu
**İmişli Rayon Məhkəməsi**
Salmanov Elnur Nizami oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Mehdiyeva Aysel İntiqam qızı
**Masallı Rayon Məhkəməsi**
Səmədzadə Firuzə Siyasət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Raxtari Kamilə Səftər qızı
**Şabran Rayon Məhkəməsi**
Əhmədova Əfsanə Əlövsət qızı
**Şamaxı Rayon Məhkəməsi**
Əliyev Samir Sahib oğlu
**Şəki Rayon Məhkəməsi**
Məmmədli Hacı Əliheydər oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Abbaslı Əsgər Əbülfət oğlu
**Tərtər Rayon Məhkəməsi**
Təhməzli Nigar Natiq qızı
**Tovuz Rayon Məhkəməsi**
Aydəmirov Elməddin Şabəddin oğlu
**Ucar Rayon Məhkəməsi**
Babayeva Nərgiz Səftər qızı
**Yardımlı Rayon Məhkəməsi**
Məmmədova Aygün Fəhrad qızı.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# Baş prokuror Rusiya Federasiyasının baş prokurorunun müavinini qəbul edib




Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının baş prokurorunun müavini Pyotr Qorodovu qəbul edib.

Görüşdə dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində Azərbaycan ilə Rusiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafı xüsusi vurğulanıb.

Bildirilib ki, iki ölkə arasında mövcud olan strateji tərəfdaşlığın yüksək səviyyəsi və dövlətlərarası dialoqun davamlı xarakteri siyasi, iqtisadi, nəqliyyat-logistika və humanitar sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün möhkəm zəmin yaradır. Bu münasibətlər həmçinin hüquq-mühafizə və prokurorluq orqanları arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Rusiya Federasiyasının baş prokurorunun müavini Pyotr Qorodov göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edərək iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. O, cinayət işləri üzrə göndərilən sorğuların peşəkar və keyfiyyətli şəkildə tərtib olunmasını, həmçinin uzun illər əvvəl Rusiya Federasiyasında törədilmiş cinayətin Azərbaycan Respublikasında açılaraq təqsirli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsini yüksək qiymətləndirərək minnətdarlığını çatdırıb. Bununla yanaşı, cari il ərzində keçiriləcək mühüm beynəlxalq tədbirlərdə iştirak etmək üçün dəvət ünvanlayıb. Baş prokuror cavabında beynəlxalq tədbirlərin və tərəfdaşlarla əlaqələrin inkişaf etdirilməsinin Baş Prokurorluq üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tərəflər ölkələrimizin prokurorluq orqanları arasında mövcud olan sıx əməkdaşlıq və dostluq münasibətlərinin bütün istiqamətlər üzrə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə ediblər.

# Ceyhun Bayramovun həmkarları ilə telefon danışığı olub









Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazirlər Yaxın Şərq regionunda müşahidə olunan hərbi eskalasiya və artan gərginliklə bağlı fikir mübadiləsi aparıblar.

Mövcud vəziyyətin regional və qlobal təhlükəsizliyə təsiri vurğulanaraq, humanitar hüquqa riayət edilməsinin, mülki əhalinin və obyektlərin qorunmasının, məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dialoq və diplomatik vasitələrlə həllinin vacibliyi qeyd edilib. Pakistan tərəfi eyni zamanda Pakistan-Əfqanıstan sərhədində baş vermiş toqquşmalarla bağlı mövcud vəziyyət barədə məlumat verib.

Telefon danışığı zamanı həmçinin Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyəti və gələcək inkişaf perspektivləri də müzakirə edilib.

❖❖❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Jan-Noel Baro arasında telefon danışığı baş tutub. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı tərəflər Yaxın Şərq regionunda mövcud gərgin təhlükəsizlik vəziyyətini və artan hərbi eskalasiyanı müzakirə ediblər. Nazirlər bölgədə vəziyyətin daha da kəskinləşməsinin regional və beynəlxalq təhlükəsizlik üçün ciddi risklər yaratdığını qeyd edib, diplomatik səylərin və dialoqun bərpa olunmasının vacibliyini vurğulayıblar.

Fransa naziri yaranmış mürəkkəb şəraitdə Fransa vətəndaşlarının İran İslam Respublikasından təxliyəsi prosesində Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür ifadə edib və bu istiqamətdə əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Tərəflər Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar. İki ölkə Prezidentinin Kopenhagen görüşü nəticəsində qarşılıqlı maraq doğuran sahələrdə dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparıblar.

❖❖❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Latviya Respublikasının xarici işlər naziri Baiba Braje arasında telefon danışığı olub.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazirlər arasında Yaxın Şərqdə mövcud hərbi eskalasiya və artan gərginlik müzakirə olunub. Vəziyyətin daha da kəskinləşməsinin geniş coğrafiyada təhlükəsizlik üçün risklər yaratdığı qeyd edilib. Münaqişələrin diplomatik vasitələrlə həllinin və dialoqun vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı Azərbaycan-Latviya ikitərəfli münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər siyasi dialoqun intensivləşdirilməsini, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini məmnunluqla vurğulayıblar.

Bununla yanaşı, digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2023-cü il 8 fevral tarixli 2035 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 oktyabr tarixli 504 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 60** **Bakı şəhəri, 2 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2023-cü il 8 fevral tarixli 2035 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 oktyabr tarixli 504 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; 2025, № 8, maddə 802, № 9, maddə 879, № 10, maddə 972, № 12 (II kitab), maddələr 1214,1257) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 11-1-ci hissəsindən "Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879, № 10, maddə 972,№ 12 (II kitab), maddələr 1214,1257) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Turizm Departamentinin Aparatı" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 yanvar tarixli 27 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 171(Cild I) birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin kollegiya üzvlərinin sayı 9 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Aparatının Turizm siyasəti və strategiyası şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Aparatının Mədəni irs və regional turizm şöbəsinin müdiri

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Azərbaycan Turizm Bürosu İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin İcraçı direktoru.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

"Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və Qərarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 61** **Bakı şəhəri, 2 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 880 (Cild I); 2024, № 4, maddə 468) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın 1-ci hissəsinin yeddinci abzasında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605, № 10, maddələr 967, 976, 982, № 11, maddə 1101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 dekabr tarixli 403 nömrəli və 2026-cı il 21 yanvar tarixli 21 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1.5-ci yarımbəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598, № 10, maddə 982) ilə təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın 2.1.3-cü yarımbəndində, 3.1-ci, 3.2-ci bəndlərində və 4.7-ci bəndinin birinci cümləsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598, № 10, maddə 982) ilə təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2.1-ci yarımbənddə "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

4.2. 9.3-cü bənddə "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

5. "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 199 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

### Milli Məclisin iclasında

# Ombudsman hesabat verdi

Martın 3-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri Sahibə Qafarova gündəliyə 8 məsələnin daxil edildiyini, birinci məsələnin Milli Məclisin qərar layihəsi olduğunu bildirib. Milli Məclisin Sədri qeyd edib ki, qanunvericiliyə uyğun olaraq iclasda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinləniləcək.




2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəni təqdim edən insan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva ötən ilin ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi, sosial və institusional islahatlara əsaslanan proseslərlə yadda qaldığını söyləyib. Ombudsman vurğulayıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, genişmiqyaslı müasir infrastruktur layihələrinin həyata keçirilməsi, iqtisadi fəaliyyətin bərpası və sosial xidmətlərə əlçatanlığın təmin olunması istiqamətində davam etdirilən tədbirlər 30 ildən çox doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın öz torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışına, bununla da pozulmuş fundamental hüquqlarının bərpasına imkan yaradıb. İşğaldan azad olunmuş torpaqlarımızda dağıdılmış tarixi, mədəni və dini obyektlərin bərpası və yenidən inşası istiqamətində kompleks tədbirlər Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə davam etdirilməkdədir.

Qeyd edilib ki, ölkə Prezidentinin yürütdüyü uğurlu xarici siyasət Azərbaycanın regional sülh və təhlükəsizlik gündəminin ardıcıl şəkildə irəli aparılması üçün əlverişli zəmin yaradıb, Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması uzun illər insan hüquqlarının pozulmasına səbəb olmuş münaqişənin bitməsinə, regionda sülh və sabitliyin bərqərar olmasına, dövlətlərarası münasibətlərin, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına əsaslı şərait yaradıb. Türkdilli ölkələrlə əlaqələrin inkişaf etdirilməsi insan hüquq və azadlıqlarının qorunması və təşviqi üçün daha əlverişli regional mühitin formalaşmasına töhfə verib.

Bildirilib ki, ötən il ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq pozuntularının qarşısının alınması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi çoxşaxəli fəaliyyətini dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media subyektləri və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində davam etdirib.

2025-ci ildə ombudsmanın ünvanına 42.685 müraciət daxil olub, "916" Çağrı Mərkəzi tərəfindən 14.718 zəng qəbul edilib, habelə ombudsman, onun Aparatı və regional mərkəzləri tərəfindən ümumilikdə 9.060 nəfər şəxs qəbul olunub. Ombudsmana ünvanlanan müraciətlərin araşdırılması məqsədilə aidiyyəti dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara sorğular ünvanlanıb, nöqsan və çətinliklərin aradan qaldırılması və pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlər görülüb, təklif və tövsiyələr verilib.

Bildirilib ki, son illər informasiya texnologiyalarının sürətlə inkişafı, xüsusən də süni intellektin bütün sahələr üzrə geniş tətbiqi informasiya əldə etmək hüququnun reallaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə və nəzarət tədbirlərinin gücləndirilməsi, rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsi üzrə maarifləndirici proqramların həyata keçirilməsi olduqca əhəmiyyətlidir.

Ombudsman rəqəmsallaşdırma və süni intellektin əmək hüququnun həyata keçirilməsi və müdafiəsi mexanizmlərinə də təsir etdiyini deyərək, texnoloji dəyişikliklərə hazırlıq məqsədilə regionlar üzrə əmək bazarının öyrənilməsinə, işçilərin hüquqlarının qorunmasına yönəlmiş kollektiv tədbirlər planının hazırlanmasının, süni intellektin tətbiqi nəticəsində ixtisar olunacaq və ya adaptasiya çətinliyi yaşayacaq şəxslərə dəstək mexanizmlərinin yaradılmasının zəruriliyindən söhbət açıb.

Səbinə Əliyeva habelə əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədilə bu prosesdə iştirak edən qurumlar arasında koordinasiyalı və qarışılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunmasının, qiymətləndirmə prosedurlarının sadələşdirilməsinin vacibliyindən danışıb. Bununla yanaşı, o, əhalinin sağlamlıq hüququnun effektiv şəkildə həyata keçirilməsi məqsədilə regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərin əlçatanlığının təmin edilməsinin, ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsinin əhəmiyyətini qeyd edib. O, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə və onkoloji xəstələrə tibbi yardımın göstərilməsi, onların lazımi dərman preparatları ilə təmin edilməsi sahəsində görülən işlərdən söhbət açıb, təkliflər verib.

Nəzərə çatdırılıb ki, ombudsman il ərzində məhkumların və onların ailə üzvlərinin əfv barədə müraciətlərini nəzərə alaraq, müntəzəm qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına təkliflər göndərib və komissiyanın iclaslarında iştirak edib. Ombudsmanın müraciətləri əsasında ümumilikdə 900 məhkum, 2025-ci ildə isə 21 məhkum əfv edilib. Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsinə dair təşəbbüsünün dövlətin humanizm siyasətinin ardıcıl və sistemli şəkildə davam etdirilməsinin bariz nümunəsi olduğu vurğulanıb. Qeyd edilib ki, bu təşəbbüs əsasında Milli Məclis tərəfindən qəbul edilmiş sayca 13-cü olan amnistiya aktı ümumilikdə 20.000-dən çox şəxsi əhatə etməklə, bu zamana qədər qəbul edilmiş ən genişmiqyaslı amnistiya aktı hesab olunur.

2025-ci ildə Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində ümumilikdə 355 başçəkmə həyata keçirilib, onlardan 93-ü plandankənar olub. Başçəkmələr zamanı ümumilikdə 3.462 nəfər qəbul edilib.

Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası çərçivəsində uşaqların, qadınların, ahıl və əlilliyi olan şəxslərin hüquqları, onların reabilitasiyası və inklüzivlik məsələləri, habelə bərabərlik hüququnun təmini və ayrı-seçkilik hallarının qarşısının alınması ilə əlaqədar sistemli monitorinqlər həyata keçirilib və bununla bağlı hesabatlar hazırlanaraq mediada yayımlanıb. Qanunvericiliyin insan hüquq və azadlıqlarının daha səmərəli təmini baxımından təkmilləşdirilməsi məqsədilə 2025-ci ildə ombudsmanın normativ hüquqi aktların, o cümlədən dövlət proqramları və fəaliyyət planları layihələrinə dair verdiyi rəy və təkliflər nəzərə alınıb.

Həmçinin ombudsmanın Konstitusiya Məhkəməsi ilə əməkdaşlığının insan hüquq və azadlıqlarının səmərəli təmin olunması baxımından xüsusi önəm daşıdığı qeyd olunub, ötən il ərzində ombudsman tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış üç sorğu üzrə müvafiq qərar və qərardadların qəbul edildiyi bildirilib.

Qeyd olunub ki, Azərbaycan ombudsmanı və onun nümayəndələrinin iştirak etdiyi beynəlxalq tədbirlərdə, insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlara ünvanlanmış bəyanat, müraciət və açıqlamalarda etnik təmizləmə siyasəti nəticəsində doğma torpaqlarından zorla qovularaq qaçqın düşmüş yüz minlərlə azərbaycanlının fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulması faktları diqqətə çatdırılıb.

Səbinə Əliyeva ombudsmanın 2025-ci il üzrə məruzəsində insan hüquq və azadlıqlarının daha effektiv təmini və müdafiəsi, normativ hüquqi aktların təkmilləşdirilməsi, institusional koordinasiyanın gücləndirilməsi və dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması üzrə bir sıra təkliflərin irəli sürüldüyünü bildirib.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında qeyd edib ki, 2025-ci il Azərbaycan üçün milli və beynəlxalq səviyyədə bir çox tarixi uğurlarla zəngin olub. "Konstitusiya və Suverenlik İli" çərçivəsində məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı ilə yanaşı, ilin sonunda elan olunan Amnistiya aktı 20 mindən çox insanı əhatə edib. O, sülh hüququnun BMT tərəfindən tanınan fundamental insan hüququ olduğunu söyləyərək, ötən il Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasını insan hüquqları sahəsində əldə edilən uğur kimi dəyərləndirib.

Zahid Oruc bildirib ki, hesabatın tərtibatı, strukturu və məzmunu insan hüquqları üzrə müvəkkilin insan haqlarının qorunması sahəsində fəaliyyət göstəriciləri dinamikanı əks etdirən mötəbər data bazadır. O, ombudsmana ünvanlanan müraciətlərin statistikasının mühüm əhəmiyyət kəsb etdiyini deyib. Komitə sədri 2025-ci ildə aidiyyəti dövlət qurumları tərəfindən görülmüş tədbirlər nəticəsində Suriyadan 5 qadın və 13 uşağın ölkəmizə qaytarıldığını söyləyərək, digər münaqişə bölgələrində olan vətəndaşlarımızın məsələsinə də yer verilməsinin zəruriliyindən danışıb. Zahid Oruc hesabatda məhkəmə qərarlarının icrası ilə bağlı, narkomaniyaya qarşı mübarizədə daxili işlər orqanlarının peşəkar fəaliyyətinə dair, həmçinin sağlamlıq hüququnun, mənzil hüququnun təminatı və digər bu kimi məsələlərə geniş yer verildiyini diqqətə çatdırıb, bir sıra təkliflərini səsləndirib.

Ombudsmanın illik məruzəsi ətrafında müzakirələrdə komitə sədrləri Fazil Mustafa, Hicran Hüseynova, deputatlar Rəşad Mahmudov, Qüdrət Həsənquliyev, Azay Quliyev, Sahib Alıyev qeyd və təkliflərini açıqlayıblar.

Səbinə Əliyeva ombudsmanın gələcək fəaliyyətində deputatların səsləndirdiyi rəy və təkliflərin nəzərə alınacağını bildirib.

Müzakirələrin yekununda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra iclasda "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası qanununun layihəsi, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə layihəni təqdim edib.

Komitə sədri bildirib ki, bu qanun layihəsi mövcud idarəetmə strukturuna uyğunlaşdırma və qanunvericilik sisteminin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Təklif olunan dəyişikliklər əsasən uyğunlaşdırma xarakterlidir və bəzi ifadələrin daha dəqiq formada verilməsini nəzərdə tutur.

Qeyd olunub ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanun qüvvəyə mindikdən sonra idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin strukturunda fəaliyyət göstərən hərbi komissarlıqlar ləğv edilib və onların əsasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Müdafiə Nazirliyinin tabeliyində olmayan, müstəqil mərkəzi icra hakimiyyəti orqanıdır. Onun fəaliyyəti və maddi-texniki təchizat qaydası ölkə Prezidentinin müvafiq fərmanları, həmçinin "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə" ilə tənzimlənir. Ona görə də bu səlahiyyətlərin Nazirlər Kabinetinə aid olması normasını əks etdirən abzasın "Müdafiə haqqında" qanundan çıxarılması təklif edilir. Eyni zamanda layihədə göstərilən digər qanunlardan da "hərbi komissarlıq" ifadəsinin çıxarılması təklif edilir.

Arzu Nağıyev vurğulayıb ki, bu dəyişikliklər sahə üzrə hüquqi tənzimləmənin daha aydın və birmənalı tətbiqinə şərait yaradacaq.

Layihə ilə bağlı Əmək və sosial siyasət komitəsinin üzvü Əziz Ələkbərov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bu komitələrin rəylərini diqqətə çatdırıblar.

Sənəd səsə qoyularaq qəbul olunub.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Komitə sədri bildirib ki, dəyişikliklərin əsas məqsədi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçuların xidmətə uyğunlaşma prosesini daha səmərəli təşkil etmək və mövcud çətinlikləri aradan qaldırmaqdır.

Qeyd olunub ki, hazırda qüvvədə olan qanunvericiliyə əsasən, qadın hərbi qulluqçular üçün də ilkin xidmət müqaviləsi 3 il müddətinə bağlanır. Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan əsasən ailə vəziyyəti və digər obyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsində qadınlarla bağlanan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azaldılması təklif olunub.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərin 4-cü iclası plenar sessiyalarla davam edib



"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərin 4-cü iclası "Nazirlər sessiyası", "Cənub Qaz Dəhlizi sessiyası: "Cənub qaz dəhlizi"ndə davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl enerji layihələri" üzrə 3 plenar sessiya ilə davam edib.

AZƏRTAC xəbər verir ki, "Nazirlər sessiyası"nda çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, dünya sürətlə süni intellektin, data mərkəzlərinin və rəqəmsallaşma ilə şərtlənən "elektrik əsri"nə qədəm qoyur və artan enerji tələbatının etibarlı qarşılanmasında təbii qaz strateji rol oynayır. O, qazın onilliklər ərzində enerji təhlükəsizliyinin əsas sütunlarından biri olaraq qalacağını və vaxtında investisiyaların vacibliyini vurğulayıb. Azərbaycandan Avropaya təbii qaz tədarükünün 2021-ci illə müqayisədə 56 faiz, Trans-Adriatik Boru Kəmərinin ötürmə gücünün isə 1,2 milyard kubmetr artırılması, eləcə də qaz təchizatı şəbəkəsinin Cənub-Şərqi Avropadan Yaxın Şərq və Mərkəzi Avropaya qədər genişləndirilməsi müsbət məqamlar kimi qeyd olunub. Ötən il 25,2 milyard kubmetr qaz ixracının strukturunda Avropanın payının təxminən 51 faiz, Türkiyə, Gürcüstan və Suriyanın ümumilikdə payının isə 49 faiz təşkil etdiyi diqqətə çatdırılıb.

"Azərbaycan Avropa üçün etibarlı təchizatçıdır və qazımıza tələbat yüksək olaraq qalır. Lakin genişlənmə üçün tələbat tərəfdən institusional və maliyyə dəstəyi hələ də kifayət deyil. Hazırda dörd upstream layihəsinin 2026-2029-cu illərdə istismara verilməsi üzərində işləyirik. Bu il "Azəri-Çıraq-Günəşli"də sərbəst qazın işlənməsi layihəsi çərçivəsində ilk qazın hasilatını gözləyirik. Həmçinin quruda və dənizdə daha dörd kəşfiyyat layihəsi həyata keçirilir. Bütün bunlar, eləcə də BƏƏ-nin ADNOC (XRG) şirkətinin "Cənub qaz dəhlizi"ndə səhmdara çevrilməsi kimi müsbət irəliləyişlərə baxmayaraq, Avropaya tədarük artımının əhəmiyyətli şəkildə təmin edilməsi üçün konkret maliyyə mexanizmləri ilə dəstəklənən aydın və uzunmüddətli siyasət çərçivəsi tələb olunur", - deyə nazir əlavə edib.

Nazir daxili istehlak, ixrac və data mərkəzlərinin enerji təminatı məqsədilə ümumilikdə 8 QVt həcmində bərpaolunan enerji güclərinin və "Xəzər-Qara dəniz-Avropa", Naxçıvandan birbaşa və Ermənistan üzərindən keçməklə "Azərbaycan-Türkiyə-Avropa", "Trans-Xəzər" və "Şərq-Qərb" "yaşıl enerji" dəhlizləri və interkonnektor layihələrinin yaradılması ilə bağlı hazırkı vəziyyəti də diqqətə çatdırıb. Bu regionlararası enerji bağlantıları və elektrik enerjisi vasitəsilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha gücləndirəcəyi vurğulanıb.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili bu fikirləri səsləndirib: "Gürcüstan "Cənub qaz dəhlizi" çərçivəsində etibarlı tranzit ölkə rolunu oynayır, regional və Avropa bazarları üçün enerji təchizatının şaxələndirilməsinə və təhlükəsizliyinə töhfə verir. Davamlı regional əməkdaşlıq və gücləndirilmiş bağlantılar təhlükəsiz və dayanıqlı enerji gələcəyinin əsas dayağı olaraq qalır. Gürcüstan 2036-cı ilədək elektrik enerjisi istehsalında özünü tam təmin etməyi hədəfləyir. Bu məqsədə bərpaolunan enerji və ötürücü infrastruktur sahələrinə, o cümlədən yeni sərhədlərarası bağlantıların inkişafına yönəldilmiş əhəmiyyətli investisiyalar hesabına nail olacaq".

Bolqarıstanın energetika naziri Trayço Traykov bildirib: "Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru"nun istismarına verilməsi ilə Bolqarıstan faktiki olaraq "Cənub qaz dəhlizi"nin strateji infrastrukturunun ayrılmaz hissəsinə çevrilib. Bu dəhliz Avropa ölkələri üçün enerji təhlükəsizliyinin gücləndirilməsi, eləcə də mənbələrin və marşrutların şaxələndirilməsi baxımından mühüm rolunu artıq sübut edib. Bolqarıstan qaz infrastrukturunun inkişafı istiqamətində ardıcıl siyasət həyata keçirir. Bu xüsusda, "Cənub qaz dəhlizi" çərçivəsində tərəfdaşlığın daha da gücləndirilməsinə sadiqliyimizi bir daha təsdiqləyir. Enerji sektorunda mövcud çağırışlar "Cənub qaz dəhlizi" çərçivəsində formalaşmış etibarlı tərəfdaşlıqlar kimi möhkəm əməkdaşlıq mexanizmlərini tələb edir və bu əməkdaşlıq artıq "yaşıl enerji" dəhlizləri və zonaları təşəbbüslərinə də şamil olunmaqdadır. Bolqarıstan "Yaşıl Enerji Dəhlizi" layihəsini ilk vaxtdan dəstəkləyən ölkədir".

Moldovanın energetika naziri Dorin Junqetu isə deyib: "Moldovanın strateji prioriteti qaz bazarının Avropa enerji infrastrukturuna ardıcıl inteqrasiyasının təmin edilməsidir. Bu yanaşma rəqabətədavamlı transsərhəd tədarükü və Xəzər regionundan tədarük olunan həcmlər də daxil olmaqla çoxsaylı təchizatçılara çıxışı təmin edəcək".

ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Or onlayn çıxışında bu fikirləri səsləndirib: "Cənub qaz dəhlizi" bölgədəki uğurlu tərəfdaşlığımızın mərkəzində dayanır və enerji təhlükəsizliyinin milli təhlükəsizliklə sıx bağlı olduğuna dair ortaq mövqeyimizi əks etdirir. ABŞ "Cənub qaz dəhlizi"ni yaradıldığı ilk gündən dəstəkləyir və dəhlizin Qafqaz regionunu Avropa ilə birbaşa birləşdirmək baxımından strateji əhəmiyyətini yüksək qiymətləndirir. Biz "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun və daha geniş "Trans-Xəzər" marşrutunun tam potensialını reallaşdırmaq, regional iqtisadi inteqrasiyanı gücləndirmək, eləcə də enerji, strateji minerallar və digər məhsullar üçün ticarət yollarını genişləndirmək sahəsində birgə əməkdaşlıq üçün böyük imkanlar görürük".

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Alderdays isə onlayn çıxışında deyib: "Azərbaycan regional və Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi öz rolunu yüksək peşəkarlıqla yerinə yetirir. Artıq otuz ildən çoxdur ki, Birləşmiş Krallıq ilə Azərbaycan arasında münasibətlərin təməlini enerji sahəsində əməkdaşlıq təşkil edir. Birləşmiş Krallıq "yaşıl enerji" dəhlizləri və təmiz enerji layihələri üzrə əməkdaşlıqda böyük potensial görür. Bu təşəbbüslər yalnız Azərbaycana deyil, həm də daha geniş regiona və Avropa bazarlarına mühüm töhfə verəcək".

Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Zəfər Dəmircan çıxışında bunları qeyd edib: "Cənub qaz dəhlizi"nin uzunmüddətli enerji təchizatı təhlükəsizliyinin təmin edilməsində oynadığı strateji rol barədə ümumi ortaq anlayış mövcuddur. Bu qiymətli konsepsiya indi Qafqaz və Mərkəzi Asiya ölkələrini Avropa ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi" istiqamətində inkişaf etməkdədir. Türkiyə yalnız təbii qazın nəqli üçün deyil, həm də elektrik enerjisinin ötürülməsi üçün ən əlverişli marşrutdur. Əməkdaşlıq və tərəfdaşlıq enerji təchizatının təhlükəsizliyini gücləndirmək və xalqlarımızın rifahını, həmçinin sosial-iqtisadi inkişafını artırmaq üçün istifadə edə biləcəyimiz yeganə və effektiv alətlərdir".

Qazaxıstanın energetika nazirinin müavini Sanjar Jarkeşov isə bildirib: "Qazaxıstan enerji sahəsində Azərbaycan ilə strateji tərəfdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlıqda keyfiyyətcə yeni səviyyəyə yüksəltmək üçün böyük potensial görürük. Xüsusilə Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında "yaşıl enerji"nin istehsalı və ötürülməsi üzrə genişmiqyaslı layihə ilə bağlı əldə olunmuş razılaşmaları qeyd etmək istərdim. Dövlətlərimizin başçıları tərəfindən imzalanmış saziş yalnız milli enerji sistemlərinin dayanıqlığını gücləndirmir, eyni zamanda "yaşıl investisiya"ların cəlb edilməsi vasitəsilə emissiyaların azaldılması üzrə ekoloji hədəflərimizin həyata keçirilməsinə birbaşa töhfə verir. Birgə səylər və yeni marşrutların yaradılması sayəsində biz regionun enerji müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün təməl formalaşdırırıq".

Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti və enerji təhlükəsizliyi üzrə dövlət katibi Peter Sztaray qeyd edib ki, Macarıstan hökumətinin əsas məqsədi idxal mənbələri və marşrutlarının şaxələndirilməsini tələb edən sabit, rasional və iqlim baxımından neytral enerji təchizatını təmin etməkdir: "Macarıstan "Cənub qaz dəhlizi" layihəsinin ötürmə gücünün artırılmasını Avropanın təbii qaz təchizatı marşrutlarının şaxələndirilməsi baxımından əsas layihə hesab edir. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasında iştirakımız Azərbaycanı enerji əməkdaşlığında strateji tərəfdaş kimi qəbul etdiyimizi göstərir və biz "Cənub qaz dəhlizi"nin ötürmə qabiliyyətinin artırılmasını fəal şəkildə dəstəkləyirik. "Yaşıl Enerji Dəhlizi" layihəsi isə təkcə regional deyil, həm də qlobal səviyyədə unikal təşəbbüsdür və regionlararası əməkdaşlıq sahəsində qabaqcıl nümunə olmaq potensialına malik olduğuna görə Avropa üçün əsas əhəmiyyət kəsb edir".

Albaniyanın infrastruktur və energetika nazirinin müavini Erlind Sulo bildirib: "Albaniya TAP vasitəsilə təbii qaz tədarükünə çıxış imkanı qazanmaq baxımından əlverişli mövqedədir. Bu, ölkə daxilində enerji ehtiyaclarını təmin etməyə, elektrik enerjisindən tək enerji mənbəyi kimi asılılığı azaltmağa, həmçinin ev təsərrüfatları, biznes və sənaye üçün enerjini daha əlçatan və sərfəli etməyə imkan verir. Biz bu istiqamətdə iki paralel layihə üzrə işləmək qərarına gəlmişik. Birincisi, "Vlora" İstilik-Elektrik Stansiyasının yenidən canlandırılması və onun TAP çıxış nöqtəsinə və LNG üzən terminalına birləşdirən boru kəməri ilə inteqrasiya olunmuş layihə kimi icra olunmasıdır. İkincisi, Albaniyanın əsas şəhərlərindən biri olan Korça şəhərinin qazlaşdırılmasıdır".

Serbiyanın Mədənçilik və Energetika Nazirliyində neft və qaz üzrə nazir müavini vəzifəsini icra edən Saşa Kokoviç qeyd edib: "Serbiya ilə Bolqarıstan arasında qaz interkonnektorunun istifadəyə verilməsi ilə Serbiya ilk dəfə olaraq, "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycanın qazı da daxil olmaqla digər mənbələrdən qaz tədarükü imkanına sahib olub. "Cənub qaz dəhlizi" sadəcə bir infrastruktur layihəsi deyil. O, Avropa üçün etibarlı tərəfdaşlıqlar və qarşılıqlı etimad əsasında formalaşan yeni enerji reallığını təmsil edir. Serbiyanın Azərbaycanla əməkdaşlığı xüsusi strateji əhəmiyyət daşıyır və əsasən, prezidentlər Aleksandar Vuçiç və İlham Əliyev arasındakı dostluq münasibətlərinə əsaslanır. Bu günə qədər əldə edilmiş əməkdaşlıq nəticələri təbii qaz, bərpaolunan enerji mənbələri və yeni texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsini əhatə edən imzalanmış sazişlərlə təsdiqlənib. Fevralın 15-də Serbiyanın paytaxtı Belqrad şəhərində həmdövrəli buxar-qaz turbin tipli elektrik stansiyasının inkişafı, layihələndirilməsi, tikintisi və idarə olunması üzrə imzalanmış son saziş iki ölkə arasında enerji əməkdaşlığının dəqiq sübutu və əsasını təşkil edir".

Yunanıstanın Ətraf Mühit və Energetika Nazirliyinin enerji və mineral resurslar üzrə Baş katibi Despina Paliaruta çıxışında deyib: "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyi üçün strateji əhəmiyyətini nümayiş etdirməyə davam edir. Dərin geosiyasi sarsıntılarla səciyyələnən bir dövrdə bu dəhliz etibarlı şaxələndirmə marşrutu və daha geniş region üçün sabitləşdirici amil olduğunu sübut edib. "Cənub qaz dəhlizi" yalnız şaxələndirmə marşrutu kimi deyil, həm də dekarbonizasiya üçün potensial vasitə kimi qiymətləndirilməlidir".

Ukraynanın energetika nazirinin birinci müavini Artem Nekrasov deyib: "Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərinin (TAP) ötürmə gücünün artırılması, eləcə də Xəzər regionunda yeni yataqların istismara verilməsi Avropaya qaz təchizatının əhəmiyyətli dərəcədə artırılması üçün zəmin yaradır. Bu sistem çərçivəsində Azərbaycan etibarlı resurs təchizatçısı kimi çıxış edir. Avropa İttifaqı əsas istehlakçı tərəfdaşdır və Ukrayna Avropada enerji axınlarının sabitliyini və çevikliyini təmin edən mühüm infrastruktur və logistika mərkəzi rolunu oynaya bilər. Təbii qaz sahəsində Avropa İttifaqı, Azərbaycan və Ukrayna arasında əməkdaşlıq potensial olaraq Avropada daha dayanıqlı və şaxələndirilmiş enerji arxitekturasının təmin edilməsinin əsas elementlərindən birinə çevrilə bilər".

Xorvatiyanın İqtisadiyyat Nazirliyinin dövlət katibi Vedran Şpehar isə bildirib: "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyi və təchizatın şaxələndirilməsi səylərində həlledici rolunu davam etdirir və bölgədə enerji sistemlərinin dayanıqlılığının gücləndirilməsinə əhəmiyyətli töhfə verir. Xorvatiya konstruktiv enerji tərəfdaşlıqlarına, o cümlədən Azərbaycanla əməkdaşlığına yüksək qiymət verir. Bu tərəfdaşlıqlar həm milli, həm də regional bazarlar üçün sabit və şaxələndirilmiş qaz təchizatının təmin olunmasına xidmət edir. Gələcəyə baxdıqda, Xorvatiya "Cənub qaz dəhlizi"nin Avropanın dəyişən enerji mənzərəsində davam edən strateji əhəmiyyətini anlayır. Aşağıkarbonlu gələcəyə keçid prosesi davam etdikcə təbii qaz enerji sistemlərinin təhlükəsiz, balanslı və sabit fəaliyyətinin təmin olunmasında həlledici rolunu qoruyacaqdır".

Monteneqronun Energetika və Mədənçilik Nazirliyinin dövlət katibi Dino Tutuncic çıxışında bildirib: "Monteneqro hazırda inkişaf etmiş qaz infrastrukturu ilə təchiz olunmayıb. Yanaşmamız aydın və iki istiqamətlidir: qısa müddətdə - təchizatın təhlükəsizliyi və şaxələndirilməsi; uzun müddətdə - yaşıl hidrogenlə və Avropa İttifaqının iqlim siyasəti ilə uzlaşan müasir infrastrukturun yaradılması. Bu istiqamətdə prioritet layihə İon-Adriatik Boru Kəməri (IAP) layihəsidir. Monteneqro üçün IAP, sadəcə, qaz kəməri deyil. O, gələcək regional enerji dəhlizi və Avropa bazarına inteqrasiyanın açarıdır. Ən önəmlisi isə biz onu yaşıl hidrogenin daşınmasına tam uyğun şəkildə dizayn edirik".

Avstriyanın İqtisadiyyat, Enerji və Turizm Federal Nazirliyinin Baş katibi Severin Qruber çıxışında deyib: "Son dövrün təcrübəsi göstərir ki, enerji sistemimizin dayanıqlılığının möhkəmləndirilməsi baxımından təchizatın şaxələndirilməsi xüsusi əhəmiyyətə malikdir. Biz Azərbaycanın etibarlı tərəfdaş kimi Avropa və Avstriya ilə əməkdaşlığını daha da gücləndirmək niyyətini alqışlayırıq. Avstriya vətəndaşlarının təhlükəsiz və münasib qiymətli enerji ilə təminatının dəstəklənməsi məqsədilə Azərbaycan ilə enerji sahəsində strateji tərəfdaşlığının daha da dərinləşdirilməsində maraqlıdır".

İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko bildirib: "Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya qaz ixracını artırmaqda davam edir və bununla da region üzrə enerji təhlükəsizliyini gücləndirərək etibarlı və fasiləsiz enerji təchizatını təmin edir. Gələcəyə baxdıqda, təbii qaz enerji keçidinin dəstəklənməsində mühüm rol oynamaqda davam edəcək. "Cənub qaz dəhlizi" xüsusilə də onun son seqmenti olan Trans-Adriatik Boru Kəməri gələcək illərdə ötürmə gücü artırılacaq strateji əhəmiyyətli infrastruktur layihəsidir. Bu kəmər Xəzər hövzəsi ilə Avropa bazarı arasında birbaşa bağlantı yaradaraq təhlükəsiz, çevik və şəffaf enerji axınlarını təmin edir".

Sloveniyanın ölkəmizdəki səfiri Qorazd Rençeli isə bunları diqqətə çatdırıb: "Yaşıl enerji" texnologiyalarına və müvafiq infrastrukturun inkişafına investisiya yatırmaqla biz təmiz enerji keçidini sürətləndirir, enerji təhlükəsizliyini gücləndirir və tərəfdaşlığımızı gələcəyə yönəlmiş, dayanıqlı çərçivə əsasında inkişaf etdiririk".

Şimali Makedoniyanın Energetika, Mədənçilik və Mineral Resurslar Nazirliyində neft və qaz şöbəsinin rəhbəri Goran Nikolovski bunları bildirib: "Bu iclas bir daha nümayiş etdirir ki, sabit və şaxələndirilmiş enerji sisteminin formalaşdırılması regional əməkdaşlıq üçün zəruridir. Şimali Makedoniya üçün "Cənub qaz dəhlizi"nə çıxış enerji təhlükəsizliyinin gücləndirilməsi və Avropa enerji arxitekturasına inteqrasiyanın dərinləşdirilməsi baxımından strateji imkan yaradır. Məqsədimiz aydındır - tərəfdaşlıq və bağlantıların genişləndirilməsi vasitəsilə daha təhlükəsiz və dayanıqlı enerji gələcəyi qururuq".

"Cənub Qaz Dəhlizi sessiyası"nda isə SOCAR, BP, Azərbaycan Qaz Təchizatı Şirkəti, TANAP, TAP, ICGB, XRG, "TotalEnergies", Asiya İnkişaf Bankı və "Boston Consulting Group" nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

"Yaşıl enerji layihələri" sessiyasında BOEMDA, "SOCAR Green", "Masdar", "ACWA Power", BP, "Xlinks", "Zhero", CEER, IFC, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı və İƏT-in Təmiz Enerji Mərkəzinin (CECECO) nümayəndələrinin "yaşıl enerji" dəhlizləri və layihələri, "yaşıl enerji" interkonnektorları ilə bağlı təqdimatları dinlənilib.

# Leyla Əliyeva "Yaşıl enerji layihələri" sessiyasında çıxış edib









Martın 3-də Bakı Konqres Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərin 4-cü iclası çərçivəsində "Yaşıl enerji layihələri" sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva tədbirdə çıxış edərək Xəzər dənizinin probleminə toxunub, bunun ildən-ilə daha çox narahatlıq doğuran məsələ olduğunu bildirib. "Deməliyəm ki, bu problem təkcə bizi və Xəzər dənizi ilə qonşu olan digər ölkələri narahat etmir. Xəzər dənizi, əslində, daha geniş qlobal ekosistemin güzgüsüdür. Ona görə də əgər Xəzər dənizi problem yaşayırsa, bu o deməkdir ki, dünya ekosistemi də problem içindədir. Əlbəttə ki, bu, böyük narahatlıq doğurur. Ancaq mən yalnız müsbət düşüncənin tərəfdarıyam, ona görə də əminəm ki, biz bir yerdəyik, Xəzər dənizinin səviyyəsinin yenidən qalxması üçün əlimizdən gələni edə biləcəyik və onun Aral dənizi və Urmiya gölü kimi yox olmasına imkan verməyəcəyik", - deyə o əlavə edib.

Leyla Əliyeva son 100 ildə Xəzərdə suitilərin 1 milyondan 200 minə qədər azaldığını qeyd edib.

O, həmçinin ölkəmizin bərpaolunan enerji layihələrinə fəal şəkildə investisiya yatırdığını və məqsədimizin regional "yaşıl enerji" mərkəzinə çevrilmək olduğunu bildirib.

Avropa Komissiyasının Energetika Baş idarəsinin direktoru Kristina Lobilyo Borrero bərpaolunan təmiz texnologiyaların tətbiqinin qazıntı yanacaqlardan asılılığı azaldaraq enerji təhlükəsizliyini artırdığını, vətəndaşları və sənayeni qiymət dəyişkənliyindən qoruduğunu bildirərək bu dəyişikliklərin həm də yeni sənaye imkanları və uzunmüddətli sabitliyin göstəricisi olduğunu qeyd edib.

Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev Azərbaycanın bərpaolunan enerji potensialından söz açaraq bioenerji, geotermal resurslar və yaşıl hidrogenin inkişafı istiqamətində işlər görüldüyünü qeyd edib. Agentliyin direktoru eyni zamanda Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın "yaşıl enerji" zonasına çevrilməsi üçün beynəlxalq əməkdaşlıq çərçivəsində əsas fəaliyyət sənədləri hazırlandığını diqqətə çatdırıb.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) törəməsi olan "SOCAR Green"in baş direktoru Elmir Musayev şirkətin fəaliyyəti haqqında danışaraq əsas məqsədlərinin beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək neft-qaz obyektlərini dekarbonlaşdırmaq və Azərbaycanda ekspert biliklərini konsolidasiya etmək olduğunu bildirib.

"Masdar Azərbaycan" MMC-nin direktoru Murad Sadıqov, "ACWA Power" şirkətinin Biznesin inkişafı üzrə direktoru Polina Lyubomirova, BP-nin Azərbaycan-Gürcüstan-Türkiyə regionu üzrə baş maliyyə meneceri Ayla Əzizova, "Xlinks" layihəsinin icraçı direktoru Ceyms Hamfrey, Beynəlxalq Maliyyə Korporasiyasının Qərbi Balkan və Cənubi Qafqaz ölkələri üzrə direktoru Vibke Şlomer və digərləri çıxış edərək bərpaolunan enerji sahəsindəki perspektivlərdən söz açıblar.

# WUF13 Radiospektrin İdarə Edilməsi Portalı istifadəyə verilib

Mayın 17-22-də Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ərəfəsində tədbirin texniki hazırlıq işləri çərçivəsində WUF13 Radiospektrin İdarə Edilməsi Portalı istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, yeni yaradılmış portal tədbir zamanı simsiz cihazların təhlükəsiz, fasiləsiz və koordinasiyalı şəkildə istifadəsini təmin etmək məqsədi daşıyır. Bu portal vasitəsilə akkreditə olunmuş iştirakçılar istifadə etməyi planlaşdırdıqları simsiz cihazları əvvəlcədən qeydiyyatdan keçirə və həmin cihazlar üçün müvafiq radiospektrin ayrılması ilə bağlı müraciətlərini elektron qaydada təqdim edə bilərlər.

WUF13 çərçivəsində simsiz cihazlardan istifadə etmək istəyən bütün iştirakçılar ilk növbədə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) rəsmi qeydiyyat sistemi olan GEMS portalı vasitəsilə akkreditasiyadan keçməlidirlər. Akkreditasiya təsdiqləndikdən sonra iştirakçılar Radiospektrin İdarə Edilməsi Portalında şəxsi istifadəçi hesabı yaradaraq hər bir cihaz üzrə tələb olunan texniki məlumatları təqdim etməli və radiospektrin müvəqqəti ayrılması üçün müraciət göndərməlidir.

Müraciətlərə baxıldıqdan sonra təsdiq edilmiş cihazlar üzrə iştirakçılara elektron poçt vasitəsilə müvafiq radiotezliklər barədə məlumat təqdim olunur və həmin cihazlara aid QR kod portal üzərindən aktivləşdirilir.

Tədbir məkanında bütün təsdiqlənmiş cihazlar texniki yoxlama və etiketlənmə prosedurundan keçməlidir. Yalnız bu mərhələdən uğurla keçmiş və müvafiq qaydada etiketlənmiş simsiz cihazların istifadə olunmasına icazə veriləcək.

Simsiz cihazların qeydiyyatı və radiospektr üzrə müraciətlərin təqdim edilməsi üçün son tarix 30 aprel 2026-cı ildir.








**"2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi".**

**İlham ƏLİYEV**

# Düşmənlərimiz İLHAM ƏLİYEVƏ nələri bağışlaya bilmirlər?!

**"Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır".**

**İlham ƏLİYEV**

**İkinci Qarabağ müharibəsində və ondan sonra keçirilən əməliyyatlarda dünya İlham Əliyev zəkasının, uzaqgörənliyinin, qətiyyət və dönməz iradəsinin şahidinə çevrildi!**

*Lap qısa desək:*

" 44 gün ərzində düşmən ordusu məhv edilərək diz çökdürüldü, qorxaqlar və fərarilər yığnağına çevrildi!

- Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmən qoşunlarının ölkə ərazisindən çıxarılması qrafiki təqdim edildikdən sonra ona təslim aktı sayılan üçtərəfli Bəyanatı da imzalatdırdı.
- Azərbaycan Prezidenti İlham Əliyev düşməni yalnız hərb meydanında deyil, informasiya cəbhəsində və diplomatiya meydanında da ağır məğlubiyyətə uğratdı!
- Bir vaxtlar ən yüksək status əvəzində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmayan beş rayonu geri qaytarmaq istəməyən Ermənistan Ağdam, Laçın və Kəlbəcər rayonlarını döyüşsüz, yalvara-yalvara geri qaytardı.

*Forpostunu biabırçı məğlubiyyətdən qurtarmaq və separatçı ocağını qoruyub saxlamaq üçün əldən-ayaqdan gedən Rusiya xeyli zaman keçsə də, zəmanətçisi olduğu üçtərəfli Bəyanatın bir sıra mühüm bəndlərinin yerinə yetirilməsini təmin etmədi:*

- Laçın dəhlizinə birgə nəzarət təmin olunmadı;
- Ermənistanın Azərbaycan ərazisindəki qeyri-qanuni hərbi birləşmələri və terrorçu qruplaşmaları tərk-silah edilmədi;
- Zəngəzur dəhlizi açılmadı.

Əvəzində isə Rusiya Sülhməramlı Kontingenti qanunsuz erməni hərbi birləşmələri üçün Ermənistandan göndərilən yardımlara və təchizat karvanlarına göz yumur, hətta erməni hərbi kolonlarını müşayiət edərək təhlükəsizliklərini qoruyurdular.

**Rusiya bu yolla ərazimizdəki separatçı rejimi qoruyub saxlamaq, terrorçu qruplarının döyüş vəziyyətini hifz etmək və gələcəkdə qondarma rejimi xortladaraq yenidən separatizmi körükləmək niyyətində idi.**

Hətta bir neçə dəfə Birinci Qarabağ müharibəsində olduğu kimi, hərbi əməliyyatlara açıq şəkildə müdaxilə etmək niyyətinə də düşdü!

*102-ci hərbi bazasının qapılarını açaraq bütün döyüş texnikasını ermənilərin sərəncamına verdi, müharibə dövründə dayanmadan təyyarələr vasitəsilə Ermənistana hərbi texnika və silah-sursat daşıdı.*

**Yalnız Gəncə aeroportunda dayanmış qardaş Türkiyəyə məxsus F-16-lar onları açıq müdaxilədən çəkindirirdi.**

*Belədə başqa bir şantaja əl atıldı:*

Erməni ordusunda olmayan "İskəndər M" raketləri ilə Şuşaya atəş açıldı, Gəncə, Tərtər, Bərdə və Goranboy rayonlarında yaşayış məntəqələri atəşə tutuldu, dinc əhali, qadınlar və uşaqlar arasında xeyli tələfat oldu!

**Məqsəd Azərbaycanı analoji addıma təhrik etmək və Ermənistan ərazisinin vurulmasını bəhanə gətirərək KTMT-ni hərbi əməliyyatlara qoşmaq idi!**

Azərbaycan bu avantüraya getmədi!

Əvəzində:

- 23 aprel 2023-cü ildə son dərəcə ustalıqla hazırlanmış unikal bir əməliyyatla Həkəri çayı üzərindəki düşmən postu ələ keçirilərək Laçın qapısı birdəfəlik bağlandı!

Bu, separatçı rejimin və qanunsuz erməni hərbi birləşmələrinin bellərinin qırılması demək idi!

*(Əvvəli qəzetin 3 mart tarixli nömrəsində)*









**"Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam".**

**İlham ƏLİYEV**

**"Bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".**

**İlham ƏLİYEV**

- 2023-cü ilin 19-20 sentyabrında isə Azərbaycanın hərb tarixinə düşən daha bir antiterror tədbirləri baş tutdu!

Cəmi 23 saat çəkən bu əməliyyat nəticəsində qeyri-qanunu erməni hərbi birləşmələri və terrorçu qrupları ağ bayraq qaldıraraq təslim oldular!

Tərk-silah olunanların, habelə Azərbaycan qanunları əsasında ölkəmizdə yaşamaq istəməyənlərin sağ-salamat ərazimizi tərk etmələrinə şərait yaradıldı.

*Mülki əhalidən olan bir nəfərin belə burnu qanamadı!*

**Bununla da yeni "erməni soyqırımı" tamaşalarının yaradılmasının qarşısı alındı!**

*Dağlıq Qarabağda və Şərqi Zəngəzurda bir nəfər də olsun erməni "dığa"sı və "haxçı"ğı qalmasa da, Rusiya sülhməramlıları ölkədən çıxmaq istəmirdilər...*

*Çünki separatizmi də, terrorçuluğu da, erməni özbaşınalığını da yaradanlar məhz onlar idilər!*

Məhz rus əsgərinə arxalanan, onlar tərəfindən silahlandırılaraq qudurdulan ermənilər "miatsun" bağıraraq "yeni erməni dövləti" yaratmaq fikrinə düşmüşdülər!

Amma bu dəfə daş qayaya rast gəlmişdi...

**İlham Əliyev müdrik siyasəti və dönməz qətiyyəti ilə Rusiya sülhməramlılarını musiqi sədaları altında birdəfəlik vətənlərinə yola saldı!**

Yəqin ki, Qarabağdan gedənlər indi Ukraynada separatizmi hərbi yolla dəstəkləyirlər.

❖ ❖ ❖

**Hərbi əməliyyatlar bitəndən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev yeni mərhələyə - sülhyaratma mərhələsinə start verdi.**

*Qalib dövlət olan Azərbaycan Ermənistandan hərb meydanında aldığı qisasla kifayətləndi.*

Bu dəfə sülh əlini uzadaraq onu yeni reallığı qəbul etməyə və əməkdaşlığa çağırdı.

Ermənistanın başqa çarəsi yox idi!

**Lakin burada da Azərbaycanın dəyişməz şərti var:**

**Yalnız Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırıldıqdan sonra sülh müqaviləsi imzalana bilər!**

*Hadisələrin gedişatı göstərdi ki, Rusiya həll olunmuş münaqişəni sülh yolu ilə yekunlaşdırmaq yox, onu hansısa vasitələrlə "yaşadaraq" hər iki tərəfə təsir vasitəsi formasında saxlamaq niyyətindədir!*

Sadəcə, Ukrayna müharibəsi bataqlığında ilişib qaldığı üçün bu sahədə aktiv hərəkətə keçə bilmir...

Azərbaycan isə Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə çevirmək, Orta dəhlizi işə salaraq Şimal-Cənub daşımalarını daha təhlükəsiz, az vaxt tələb edən və iqtisadi cəhətdən faydalı marşrut kimi tezliklə istifadəyə vermək fikrindədir.

Ölkəmizin qətiyyətli mövqeyi, bir sıra beynəlxalq təşkilata üzv qəbul olunması və xeyli sayda dövlətlərlə strateji tərəfdaşlıq müqavilələrini bağlayaraq qarşılıqlı fayda və bir-birinə hörmət əsasında əlaqələr yaratması Cənubi Qafqazı hələ də özünün "arxa bağça"sı sayan Rusiyanı heç vəchlə qane etmir.

Son dövrlərdə isə onun bu "narazılığ"ı açıq şəkildə görünməyə başlayıb...

- 25 dekabr 2024-cü ildə Bakıdan Qroznıya uçan sərnişin təyyarəmiz Rusiya tərəfindən vuruldu, nəticədə Aktau şəhərinə eniş etmək istərkən qəzaya uğradı.

Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak oldu, yalnız 29-u sağ qaldı.

Rusiya Prezidenti V.Putin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə beynəlxalq qaydalara uyğun olaraq dəyən ziyanın ödəniləcəyini və günahkarların cəzalandırılacağını söyləsə də, sonra vədini yerinə yetirmədi.

*Qeyri-dost addımlar yenə davam etməkdədir.*

- Rusiyada azərbaycanlılara qarşı təzyiqlər gücləndirilməkdədir.
- İki həmyerlimiz Rusiya hüquq-mühafizə orqanı əməkdaşları tərəfindən döyülərək öldürüldü...
- Bir neçə nəfər diaspor fəalımız saxta ittihamlarla həbs olunaraq uzunmüddətli cəza ilə hədələnir...

*19 fevral 2026-cı ildə Prezident İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə ABŞ-yə səfəri zamanı bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törətdilər.*

Prezidentin Təhlükəsizlik Xidmətinin əməkdaşları yüksək peşəkarlıq göstərərək təxribatın qarşısını aldılar.

- Aparılan araşdırmalar iştirakçıların tərkibində və təxribatların təşkilində "rus izi"ni aşkara çıxardı...

**Azərbaycan Prezidenti İlham Əliyev dövləti maraqlarla bağlı məsələlərdə sərbəst, öz bildiyi kimi hərəkət edir, başqaları ilə heç zaman məsləhətləşmir.**

8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistanın Baş naziri N.Paşinyanla keçirilən görüş və imzalanan sənədlər də bu qəbildəndir.

*ABŞ Prezidenti D.Trampın iştirakı və şahidliyi ilə imzalanan bir sıra sənədlər, xüsusən Azərbaycanla Ermənistan arasında Sülh Sazişinin paraflanması bəzilərinin xoşuna gəlməyə bilər.*

Xüsusən də bundan sonra ATƏT-in Minsk qrupunun ləğvi...

**Amma Azərbaycan Prezidenti İlham Əliyev özü bildiyi kimi hərəkət edir və kimlərinsə narazı qalmasına zərrə qədər də əhəmiyyət vermir!**

*Azərbaycan daha "kiçik qardaş" deyil, öz taleyini özü həll edə bilən, iqtisadi cəhətdən güclü, hərbi cəhətdən qüdrətli, dünyada böyük siyasi nüfuzu olan müstəqil dövlətdir!*

❖ ❖ ❖

- Azərbaycan dünyada yeganə ölkədir ki, təkbaşına müharibə apararaq dünyanın güclü dövlətləri tərəfindən hərtərəfli müdafiə olunan, silahlandırılan, maliyyə təminatı göstərilən düşmənini darmadağın edib qarşısında diz çökdürmüş, təslim aktını imzalatdırmışdır!
- Azərbaycan yeganə dövlətdir ki, təkbaşına separatizmə qalib gəlmiş, onun bütün "təsisat"larını ləğv etmiş, kökünü torpağından çıxararaq sərhədlərindən kənara tullamışdır!
- Azərbaycan yeganə dövlətdir ki, ərazisində bir nəfər belə, separatçı və əcnəbi əsgər mövcud deyil!
- Azərbaycan yeganə dövlətdir ki, uzun illər ölkə ərazisində separatçılıqla məşğul olan, terrorçu dəstələri yaradıb saxlayan, dinc əhaliyə divan tutaraq kütləvi qırğınlar, soyqırımları törədən qondarma separatçı qurum rəhbərlərini, hərbçilərini ədalət məhkəməsində mühakimə edərək layiq olduqları cəzanı vermişdir!

**Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, müdrik və uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur!**

*Bu gün cənab İlham Əliyev möhtəşəm quruculuq işləri ilə məşğuldur.*

Qarabağda və Şərqi Zəngəzurda görünməmiş vüsətlə bərpa və quruculuq işləri gedir, torpağın əsl sahibləri yurdlarına dönərək xoş və xoşbəxt günlərini davam etdirirlər.

**Bu gün İlham Əliyev Avropada böyük hörmət və rəğbətlə qarşılanan, dünyanın ən mötəbər tədbirlərinə arzuolunan qonaq kimi dəvət olunan, çıxışları diqqət və maraqla dinlənilən siyasi liderlərdəndir.**

*İlham Əliyev transmilli layihələri gerçəkləşdirərək Azərbaycanı dünyada ən etibarlı və arzuolunan tərəfdaşa çevirmişdir!*

- Azərbaycan 10-u Avropa İttifaqının üzvü olmaqla 14 ölkəyə təbii qaz ixrac edir!
- Azərbaycan çoxsaylı dövlətlərlə strateji tərəfdaşlıq barədə müqavilələr imzalayaraq qarşılıqlı maraqları təmin edən əlaqələr qurmuşdur.
- Azərbaycan qardaş Türkiyə ilə birlikdə TDT-nin dirçəlməsinin, qarşılıqlı əlaqələrin möhkəmlənməsinin, hərtərəfli münasibətlərin güclənməsinin səbəbkarlarından biri olmuşdur.
- Azərbaycan Orta dəhlizin yaranmasının, dünyaya təqdim olunmasının, əhəmiyyətinin əlaqəli ölkələrə çatdırılmasının təşəbbüsçüsü və icraçısıdır!
- Tezliklə Azərbaycan dünyaya "yaşıl enerji" ixracına başlayacaq və bu məqsədlə dost ölkələrlə bərabər Qara dənizin dibi ilə kabel xəttinin çəkilişini reallaşdıracaqdır.
- Azərbaycan Xəzər dənizinin dibi ilə fiber-optik xəttinin çəkilişinin əsas tərəfdaşlarından biridir.
- Azərbaycan ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasını imzalamaqla, habelə TRIPP marşrutunun çəkilişini reallaşdırmaqla Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsinin müəlliflərindən biridir.

**Bütün bu sadalananların baş müəllifi isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir!**

*Otuzillik işğala son qoyan, ərazi bütövlüyünü, dövlət suverenliyini təmin edən Azərbaycan 44 günlük müharibədən həm Zəfərlə, həm də güclənmiş vəziyyətdə çıxdı!*

**Bütün bunlar görünməmiş uğur və nailiyyətlərdir!**

**Əslində, möcüzəyə bənzər hadisələrdir!**

*Odur ki, düşmənlərimiz qısa zamanda qazanılan uğur, zəfər, qələbə və nailiyyətlərimizi dövlətimizin başçısına bağışlamaq istəmirlər.*

**Çünki belə qüdrətli Azərbaycan görmək istəmirlər!**

Amma çox nahaq yerə!

Bizi həm qəbul edəcəklər, həm də bizimlə hesablaşacaqlar!

O şey ki mövcuddur, onu qəbul etməmək olmaz!

O özü özünü qəbul etdirəcəkdir!

**Bəxtiyar SADIQOV**

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası bu dəfə də Bakıda toplaşdı. Bu mötəbər toplantılar üçün paytaxtımızın dəyişməz ev sahibi olması bir sıra səbəblərdən irəli gəlir. Əvvəla, Avropanın enerji xəritəsini dəyişdirən möhtəşəm "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olub. "Yaşıl enerji" hədəflərimiz də hamıya bəllidir və dünya tərəfindən dəstəklənir. Ən başlıca səbəblərdən biri də dövlətimizin başçısı İlham Əliyevin dünyada qazandığı nüfuzdan, kəsərli söz sahibi olmasından, Azərbaycana etibarlı tərəfdaş imici qazandırmasından qaynaqlanır.




# Avropa mavi yanacaq və "yaşıl enerji" sahəsində Azərbaycanla əməkdaşlıqdan məmnundur

"Cənub qaz dəhlizi" kimi qlobal layihənin gerçəkləşməsində Məşvərət Şurası iclaslarının mühüm rolu olub. Belə ki, hər Məşvərət Şurası ilboyu görülən işlərə yekun vurur, qarşıdakı işləri müəyyənləşdirir. Doğrudur, "Cənub qaz dəhlizi" 2018-ci ilin mayında istifadəyə verilib, onun son seqmenti isə 2020-ci ilin dekabrında işə salınıb. Bununla belə, Məşvərət Şurası yenə də hər il Bakıda toplaşır. Çünki zaman qarşıya yeni tələblər, yeni vəzifələr qoyur. Azərbaycan qazına tələbat artır. Azərbaycandan qaz idxal edən ölkələrin sayı getdikcə çoxalır. Buna görə də dəhlizin ayrı-ayrı seqmentlərinin genişləndirilməsi, yeni interkonnektorların çəkilməsi üçün zərurət yaranır. Prezident İlham Əliyev hələ bir neçə il bundan əvvəl belə deyib: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik".

Azərbaycanın Avropaya "yaşıl enerji" dəhlizi də çəkmək məqsədi var. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Qazaxıstan və Özbəkistan da qərara gəliblər ki, Azərbaycan üzərindən bu dəhlizə özlərinin istehsal etdikləri bərpaolunun enerjini qoşsunlar. Bununla ölkəmiz "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək. Bu barədə 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri saziş də imzalayıblar.

Bərpaolunan enerji ilə bağlı görüləcək işlər çoxdur. Hələ 2020-ci ildə ölkəmiz növbəti 10 ildə, yəni 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin (BOEM) payını 30 faizə çatdırmağı hədəfləyib. Gələn il BOEM-in payının artıq 25 faizə çatdırılacağı nəzərdə tutulur. Bunun reallaşması üçün ölkəmizin quruda 135 və dənizdə 157 qiqavat "yaşıl enerji" potensialı, eləcə də götürdüyü uğurlu start zəmin yaradır. İşğaldan azad edilmiş ərazilərimiz və Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan edilib.

Qarabağ və Şərqi Zəngəzurda su-elektrik stansiyalarının sayı 40-a çatıb. İndi bu ərazilərdə daha böyük bərpaolunan enerji layihələri icra olunmaqdadır. Bakıda COP29-un davam etdiyi günlərdə Cəbrayıl rayonunda BP şirkəti ilə birlikdə tikiləcək 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli qoyulub və hazırda işlər nəzərdə tutulan plana uyğun aparılır.

Ümumiyyətlə isə "yaşıl enerji" layihələri artıq digər şəhər və bölgələrimizi də əhatə etməyə başlayıb. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Bu yaxınlarda investoru Səudiyyə Ərəbistanının "ACWA Power", tikintisinin baş podratçısı Çinin "Power China" şirkətləri olan 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası istismara daxil olub. Abşeronda, Neftçalada, Biləsuvarda da növbəti bərpaolunan enerji stansiyaları layihələri öz icrasının müxtəlif mərhələlərindədir. Bir sözlə, 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Bütün bunlar barədə dünən keçirilən tədbirdə bir daha ətraflı bəhs olunub. Prezident İlham Əliyevin toplantının açılışında iştirak etməsi və çıxış etməsi tədbirin önəminə bir daha diqqət çəkir. Dövlətimizin başçısı istər qaz hasilatı və ixracı, istərsə də "yaşıl enerji" layihələrindən ətraflı danışaraq qazıntı yanacağı və bərpaolunan enerjinin vəhdəti məsələsinə də toxunub: "Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin eyni zamanda biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin səylərinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, biz yaxşı həll yolları tapacağıq".

Yeri gəlmişkən, qeyd edək ki, dövlətimizin başçısı tədbirdə iştirak etmək üçün Bakıya gələn Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dan Yorgensen Prezident İlham Əliyevin çıxışının onlarda dərin təəssürat hissi yaratdığını bildirib. Tədbirin çox mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ölkəmizlə tərəfdaşlığın onlar üçün önəm kəsb etdiyini deyib və onu genişləndirməkdə maraqlı olduqlarını vurğulayıb, əməkdaşlığa görə minnətdarlıq edib.

Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun ötən il ölkəmizə səfərlərinə toxunaraq heyətlərimizin fəal işləməsini enerji və bağlılıq məsələlərində əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfdə olan iradənin göstəricisi kimi qiymətləndirib.

Söhbət zamanı Azərbaycanın xüsusən hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunulub, enerji sahəsində ölkəmizin Avropa bazarında ixrac coğrafiyasının genişləndirilməsi və təbii qaz, "yaşıl enerji" ilə bağlı əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olunub.

Qeyd edək ki, budəfəki toplantıya Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, eləcə də 49 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak edib. Toplantının açılışından sonra nazirlər sessiyası və plenar sessiyalar, "dəyirmi masa" keçirilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil" ifadəsi dosta güvən, düşmənə isə gözdağıdır

Cənubi Qafqazda münaqişədən sonrakı mərhələdə Azərbaycan-Ermənistan münasibətləri yeni və həssas bir dövrə qədəm qoyub. Paraflanmış sülh sazişinin yekun imzalanması, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması məsələsi, eləcə də bu ölkədə keçiriləcək parlament seçkilərinin regiondakı proseslərə mümkün təsiri hazırda əsas müzakirə mövzularındandır. Bununla yanaşı, Prezident İlham Əliyevin Xocalı Soyqırımı Memorial Kompleksinin açılışında da vurğuladığı kimi, artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadirdir.



Mövcud vəziyyət və normallaşma perspektivləri ilə bağlı AZƏRTAC-ın suallarını Ankara Universitetinin professoru, ermənişünas-alim Yıldız Deveci Bozkuş cavablandırıb.

*- Yıldız xanım, Azərbaycan-Ermənistan münasibətlərində mövcud durumu necə qiymətləndirirsiniz? Sizcə, münaqişədən sonrakı dövrdə tərəflər arasında etimadın formalaşması üçün hansı addımlar atılmalıdır?*

- Azərbaycan-Ermənistan münasibətlərində proses normal şəkildə irəliləyir. Həm münasibətlərin normallaşması, həm də Zəngəzur dəhlizi ilə bağlı qeydə alınan inkişaflar Cənubi Qafqazda normallaşma prosesinin qapılarını aralayıb. Bu yeni mərhələdə Azərbaycan-Ermənistan münasibətləri ilə yanaşı, Türkiyə-Ermənistan münasibətlərində də normallaşma prosesi başlayıb. Bu baxımdan, Qarabağın işğaldan azad edilməsi həm regional, həm də qlobal miqyasda yeni reallıqlar yaratdı.

Hazırkı dövrdə dünyanın, adətən, bir alov topuna döndüyü bir şəraitdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma mərhələsinə daxil olmasının nə qədər önəmli olduğunu bir daha gördük.

Münaqişədən sonra qalıcı sülhün təmin edilməsi baxımından tərəflərin üzərinə böyük məsuliyyət düşür. Göründüyü kimi, tərəflər bu istiqamətdə üzərlərinə düşən vəzifələri böyük ölçüdə yerinə yetirirlər. İkili və çoxtərəfli görüşlərin keçirilməsi, ABŞ-də imzalanan TRIPP sazişi, saziş çərçivəsində Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi kimi addımlar olduqca əhəmiyyətlidir.

*- Azərbaycan ilə Ermənistan arasında paraflanmış sülh sazişinin yekun imzalanmasını müəyyən edən əsas siyasi və hüquqi amillər barədə nə deyə bilərsiniz? Xüsusilə Ermənistan Konstitusiyasında yer alan ərazi iddialarına dair müddəalarla bağlı fikriniz maraqlıdır.*

- Bu məsələdə siyasi baxımdan Ermənistan rəhbərliyinin üzərinə böyük məsuliyyət düşür. Ermənistan hökumətinin konstitusiya ilə bağlı atacağı addımlar və rəsmi Bakının Azərbaycanın ərazi bütövlüyünə dair gözləntilərinin qarşılanması mühüm əhəmiyyət daşıyır. Bunun üçün Ermənistanın konstitusiya dəyişikliklərinə getməsi zəruridir. Lakin bu addımın qısa müddətdə atılması çətin görünür.

Bununla belə, iyun seçkilərindən sonra Ermənistan hökumətinin diaspor və millətçi qrupların təzyiqlərinə baxmayaraq, bu istiqamətdə mühüm addımlar atacağı ehtimal olunur. Qlobal və regional prosesləri izləyən Ermənistan yəqin ki, qonşuları ilə yaxşı münasibətlər qurmaq və normallaşma prosesinə qoşulmaqdan başqa alternativinin olmadığını yaxşı başa düşür. Ermənistan hökumətinin Türkiyə ilə normallaşma istiqamətində atdığı addımlar da bu siyasətin göstəricisidir.

*- Seçkidən söz düşmüşkən, sizcə, Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticələri ölkənin xarici siyasət xəttinə və Azərbaycanla normallaşma prosesinə necə təsir göstərəcək?*

- Ermənistan seçkiləri, əslində, həm İrəvan, həm də Bakı üçün bir fürsətdir. Əsas məsələ bu fürsətin necə dəyərləndiriləcəyidir. Mövcud Ermənistan hökumətinin bu seçkidən güclənərək çıxacağı qənaətindəyəm. Bu halda ölkənin xarici siyasətində Qərbə yönəlmə və qonşularla münasibətlərin yaxşılaşdırılması real siyasət çərçivəsində davam edəcək. Bu isə Azərbaycanla normallaşma prosesinin sürətlənməsinə gətirib çıxara bilər. Nəticədə region daha qısa müddətdə rifaha və sabitliyə qovuşar. Bu, bütün qonşu dövlətlərin arzusudur. İranda baş verən hadisələr göstərir ki, qeyri-sabitlik bütün dünyaya təsir edir. Bu səbəbdən əldə olunmuş sülh imkanını qaçırmamaq lazımdır.

*- Prezident İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılış mərasimində Azərbaycanın artıq 1992-ci ilin Azərbaycanı olmadığını, güclü və özünü müdafiə etmək qabiliyyətinə malik dövlət olduğunu vurğuladı. Bu barədə də fikrinizi öyrənək.*

- Azərbaycan Sovet İttifaqının dağılmasından sonra formalaşan yeni vəziyyətdə bir çox sahələrdə mühüm investisiyalar həyata keçirib və bu investisiyaların nəticələri artıq görünməkdədir. Bunun ən bariz nümunəsi Qarabağ müharibəsində özünü göstərdi. Bu gün Bakı Cənubi Qafqazda olduğu kimi, ümumilikdə türk dünyasında da parlayan ulduzdur.

Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi çərçivəsində hərbi, ticarət və siyasi sahələrdə daha da güclənən Azərbaycan xüsusilə müdafiə sahəsində Türkiyə ilə mühüm əməkdaşlıq siyasəti həyata keçirir. Bu baxımdan, Prezident Əliyevin "Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil" ifadəsi mühüm və strateji məna daşıyır. Bu dosta güvən, düşmənə isə gözdağıdır. Eyni zamanda bu ifadələr Bakının artıq regional və qlobal miqyasda önəmli aktor kimi çıxış etdiyini göstərir.

*- Yıldız xanım, Bakıya təyyarə ilə gəldiniz. Bir gün Ankara-Pekin dəmir yolu ilə, Zəngəzur dəhlizi vasitəsilə Bakıya gələcəyinizi necə təsəvvür edirsiniz?*

- İnanıram ki, Ankara-Pekin dəmir yolu xətti siyasi, iqtisadi və mədəni baxımdan çoxölçülü bir mənzərə ortaya qoyacaq. Enerji marşrutlarının yenidən formalaşdığı, nəqliyyat və infrastruktur layihələrinin qlobal rəqabətin əsas elementinə çevrildiyi indiki dövrdə belə bir marşrut strateji əhəmiyyət daşıyır.

Bu xətt yalnız regional deyil, qlobal miqyasda da çoxşaxəli təsirlər yarada bilər. Xüsusilə İran mərkəzli proseslər və regional həssaslıqlar nəzərə alındıqda alternativ və təhlükəsiz quru dəhlizlərinin əhəmiyyəti daha da artır. Bu kontekstdə Zəngəzur üzərindən Bakıya uzanan dəmir yolu xətti Azərbaycan və Türkiyənin türk dünyası ilə iqtisadi və geosiyasi inteqrasiyası baxımından mühüm mərhələ ola bilər.

Daha da önəmlisi, bu marşrut Ankara və Bakının Rusiya-Çin-Avropa İttifaqı arasında balans siyasətini daha çevik və çoxşaxəli şəkildə həyata keçirməsinə imkan verər. Enerji ixracatçısı olan Azərbaycan bu prosesdə logistika və strateji qovşaq kimi rolunu gücləndirə bilər.

Beləliklə, sözügedən dəmir yolu xətti yalnız nəqliyyat layihəsi deyil, həm də regional güc memarlığının yenidən formalaşdırılması anlamına gəlir və qlobal tədarük zəncirlərində yeni mövqelənmə imkanı yaradır.

# Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi davam edir

**O**tuz ilə yaxın davam edən işğal dövrü başa çatdıqdan sonra Azərbaycanın qarşısında yeni və eyni zamanda son dərəcə mürəkkəb bir mərhələ başladı. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla hərbi əməliyyatlara son qoyulduqdan sonra ölkə üçün əsas prioritetlərdən biri azad edilmiş ərazilərin təhlükəsizliyinin təmin edilməsi, infrastrukturun bərpası və məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təşkili oldu. Lakin bu proses gözlənildiyindən daha çətin və uzunmüddətli xarakter aldı. Bunun başlıca səbəbi həmin ərazilərin geniş miqyasda minalanması, partlamamış hərbi sursatlarla çirkləndirilməsi idi.

Hazırda Azərbaycan mina ilə ən çox çirklənmiş ölkələr sırasında göstərilir. Rəsmi və təxmini hesablamalara görə, işğaldan azad olunmuş ərazilərdə 1,5 milyona yaxın mina basdırılıb. Ümumilikdə 9 min kvadratkilometrə yaxın ərazi müxtəlif növ partlayıcı vasitələrlə çirkləndirilib. Bu fakt təkcə hərbi baxımdan deyil, humanitar aspektdən də böyük fəlakət deməkdir. Çünki mina təhlükəsi yalnız torpağı deyil, insanların həyatını, sağlamlığını və gələcəyini də hədəf alır.

Statistik göstəricilər vəziyyətin nə qədər ağır olduğunu açıq şəkildə nümayiş etdirir. 10 noyabr 2020-ci ildən 7 yanvar 2026-cı il tarixinədək olan dövrdə ümumilikdə 416 nəfər mina partlayışının qurbanı olub. Ümumən isə indiyədək 3 mindən artıq vətəndaş mina və partlamamış sursatların təsirindən zərər görüb. Təəssüf ki, bu rəqəmlər artan dinamika nümayiş etdirir. Hələ torpağın altında qalan yüz minlərlə partlayıcının gələcəkdə törədə biləcəyi təhlükələr isə vəziyyətin uzun müddət gündəmdə qalacağını göstərir.

Azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələri genişmiqyaslıdır. Qısa müddət ərzində yollar çəkilir, elektrik xətləri bərpa olunur, yaşayış məntəqələri yenidən qurulur, məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilir. Artıq 30 minə yaxın keçmiş məcburi köçkün doğma yurduna qayıdıb. Lakin mina təhlükəsi bu prosesin tempinə birbaşa təsir göstərir. Əgər ərazilər bu qədər minalanmasaydı, köç prosesi daha sürətli həyata keçirilə bilərdi.

Hazırda minatəmizləmə əməliyyatları dövlət səviyyəsində prioritet istiqamət kimi müəyyən edilib. Bu sahədə əsas qurumlardan biri olan Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) müvafiq dövlət strukturları ilə birlikdə genişmiqyaslı əməliyyatlar həyata keçirir. Təkcə fevral ayı ərzində 71 tank əleyhinə mina, 410 piyada əleyhinə mina və 1621 ədəd partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Həmin müddətdə 4264,8 hektar ərazi partlayıcı qalıqlardan təmizlənib. Bu əməliyyatlar Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını əhatə edib.

Minatəmizləmə işlərinə digər dövlət qurumları da fəal şəkildə cəlb olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Minatəmizləmə fəaliyyəti haqqında" qanunun icrası ilə bağlı fərman bu sahədə institusional mexanizmlərin daha da təkmilləşdirilməsini nəzərdə tutur. Sənədə əsasən, FHN-in müvafiq bölmələri də minatəmizləmə prosesində daha sistemli şəkildə iştirak edəcək.

Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin mina əleyhinə xüsusi təyinatlı alayı əməliyyatlarda bilavasitə iştirak edir. Şəxsi heyət ən müasir texnika və avadanlıqla təmin olunduqdan sonra sahələrə buraxılır. İstifadə olunan vasitələr mütəmadi olaraq yeni nəsil texnologiyalarla əvəzlənir. Bundan əlavə, dörd ədəd GCS 200 mexaniki minatəmizləmə qurğusu əməliyyatlara cəlb edilib. Mexaniki vasitələrin tətbiqi həm vaxt itkisini azaldır, həm də şəxsi heyətin risk səviyyəsini minimuma endirir.



Mina problemi yalnız texniki və təhlükəsizlik məsələsi deyil, eyni zamanda beynəlxalq hüquq müstəvisində ciddi müzakirə predmetidir. 1949-cu il tarixli Cenevrə konvensiyaları və 1977-ci il tarixli Cenevrə Konvensiyasının I Əlavə Protokolu silahlı münaqişələr zamanı mülki əhalinin qorunması ilə bağlı konkret öhdəliklər müəyyən edir. Münaqişə başa çatdıqdan sonra isə tərəflər hərbi qalıqların yaratdığı təhlükələrin aradan qaldırılması istiqamətində əməkdaşlıq etməlidirlər. Mina sahələrinin xəritələrinin təqdim edilməsi, risklərin azaldılması və mülki şəxslərin təhlükəsizliyinin təmin olunması bu öhdəliklərin tərkib hissəsidir.

Əgər mina sahələri barədə məlumatlar ya, ümumiyyətlə, təqdim olunmursa, ya da qeyri-dəqiq şəkildə ötürülürsə, bu, humanitar nəticələrin bilərəkdən uzadılması kimi qiymətləndirilə bilər. Ermənistan ilkin mərhələdə mina xəritələrinin mövcudluğunu inkar etmiş, sonradan təqdim etdiyi sənədlərin dəqiqliyinin isə cəmi 25 faiz olduğu bildirilmişdir. Normativ-texniki qaydalara əsasən, mina sahələrinin formulyarlarında istinad nöqtələri, koordinatlar, minaların növü, sayı, basdırılma üsulu və digər zəruri məlumatlar göstərilməlidir. Lakin təqdim edilən materialların təhlili göstərib ki, koordinatlar natamam və uyğunsuzdur, real vəziyyətlə üst-üstə düşmür.

Bu hal beynəlxalq hüququn dövlət məsuliyyəti prinsipi çərçivəsində də qiymətləndirilə bilər. Əgər bir dövlətin hərəkəti və ya hərəkətsizliyi nəticəsində digər dövlətin ərazisində insanlara və infrastruktura zərər dəyirsə, həmin zərərin hüquqi müstəvidə araşdırılması mümkündür. Bu baxımdan, məsələ Beynəlxalq Ədalət Məhkəməsi səviyyəsində dövlətlərarası mübahisə predmeti ola bilər. Eyni zamanda insan hüquqlarının pozulması aspektindən Avropa İnsan Hüquqları Məhkəməsi mexanizmləri də nəzərdən keçirilə bilər.

Mina təhlükəsi birbaşa olaraq insanların yaşamaq hüququna, sərbəst hərəkət azadlığına və mülkiyyət hüququna təsir göstərir. Doğma evinə qayıtmaq istəyən keçmiş məcburi köçkünlər üçün əsas şərt təhlükəsiz yaşamaqdır. Əgər torpaq hələ də partlayıcılarla doludursa, qayıdış prosesi həm ləngiyir, həm də əlavə risklər yaradır. Bu isə fundamental insan hüquqlarının məhdudlaşdırılması deməkdir.

Azad edilmiş ərazilərdə mülki təyinatlı sahələrin - yolların, qəbiristanlıqların, əkin sahələrinin və yaşayış məntəqələrinin minalanması xüsusilə narahatedici məqamdır. Bu fakt mina probleminin sırf hərbi xarakter daşımadığını, mülki əhali üçün uzunmüddətli təhlükə yaratmaq məqsədi güddüyünü göstərir. Nəticədə həm iqtisadi fəaliyyət, həm kənd təsərrüfatı, həm də sosial həyat ciddi zərbə alır. Bununla belə, Azərbaycan dövləti məsələni mərhələli və sistemli şəkildə həll etmək əzmindədir. Minatəmizləmə əməliyyatlarının miqyası hər il genişlənir, texniki imkanlar artırılır, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq dərinləşdirilir. Əsas məqsəd azad edilmiş bütün əraziləri təhlükəsiz və yaşayış üçün yararlı vəziyyətə gətirməkdir.

Vətəndaşlara işğaldan azad olunmuş ərazilərə səfər zamanı yalnız icazə verilmiş marşrutlarla hərəkət etmələri tövsiyə olunur. Çünki tam yoxlanılmamış sahələrdə hər bir addım həyati risk daşıyır. Maarifləndirmə tədbirləri, sosial çarxlar və təlim proqramları vasitəsilə mina təhlükəsi barədə məlumatlandırma işi davam etdirilir.

Mina terroru uzun illərin işğal siyasətinin ən ağır miraslarından biridir. Lakin bu problem Azərbaycan dövlətinin iradəsini sarsıda bilməz. Texniki imkanların səfərbər olunması, hüquqi mexanizmlərin işə salınması və beynəlxalq platformalarda mövqeyin ardıcıl müdafiəsi nəticə etibarilə təhlükənin aradan qaldırılmasına xidmət edir. Qarşıdakı illərdə əsas hədəf azad edilmiş bütün torpaqları partlayıcı qalıqlardan tam təmizləmək, məcburi köçkünlərin təhlükəsiz qayıdışını təmin etməkdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Xocalıya dönüş - ədalətin qələbəsi

Otuz dörd il əvvəl - 1992-ci il fevralın 26-dan 27-nə keçən gecə bu şəhərdə dəhşətli faciələr baş verdi. Erməni quldurlarının od vurub yandırdıqları Xocalı alovlar içində sakinlərinin ah-nalələrinə, fəryadlarına şahidlik etdi. Azğınlaşmış düşmən o gecə Xocalı adlı Azərbaycan şəhərini Yer üzündən silirdi. Qarlı, şaxtalı həmin fevral günündə işğalçıların zülmündən baş götürüb evindən, yurdundan qaçmaq məcburiyyətində qalan soydaşlarımız şəhid oldu. Təcavüzkar ermənilər əsir götürdükləri xocalılara işgəncələr verdilər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törətdi. Faciə zamanı qətlə yetirilən 613 nəfərin 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl insan idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi.

O müsibətli günlər on illərin uzaqlığında qalıb. Ancaq yaraları sağalmayıb. Heç zaman da nə tamamilə sağalacaq, nə də unudulacaq…

Lakin bu gün təsəllimiz böyük, sevincimiz sonsuzdur. Çünki Şərqi Zəngəzurun, Qarabağın digər əraziləri - Cəbrayıl, Qubadlı, Laçın, Füzuli, Ağdam, Şuşa, Kəlbəcər, Ağdərə, Xocavənd kimi Xocalı da öz əzəli sahiblərinindir. 2020-ci ildə baş verən Vətən müharibəsində və 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatında müzəffər Azərbaycan Ordusunun qazandığı böyük qələbələr nəticəsində Ermənistanın otuz il davam etdirdiyi işğala son qoyuldu.

Onilliklər ərzində əsarət altında saxladığı Azərbaycan ərazilərini Ermənistan xarabalığa çevirmişdi. İşğalçı ermənilər özlərinin olmayan Şərqi Zəngəzurda, Qarabağda dağıntılar törətmiş, nəinki kəndlərini, qəsəbələrini, şəhərlərini yerlə yeksan etmişdilər, təbii sərvətlərini talamışdılar. O yerlərin təbiətinə belə qıymış, saf bulaqlarını, sıx meşələrini məhv etmişdilər.

İndi Azərbaycan dövləti o əraziləri xarabalıqdan gülüstana çevirir. Erməni vandalların dağıtdıqları, məhv etdikləri yurdlar yenidən bərpa edilir. Qarabağda, Şərqi Zəngəzurda müasir standartlara cavab verən yeni yollar çəkilir, infrastrukturlar qurulur, kəndlər, qəsəbələr, şəhərlər salınır. Keçmiş məcburi köçkünlərin yurd həsrəti bitir. Onlar tədricən yurdlarına qayıdırlar.

Qarabağın və Şərqi Zəngəzurun Ermənistan tərəfindən 1990-cı illərdə işğal olunması, on illər ərzində əsarətdə qalması, o ərazilərin əsl sakinlərinin - azərbaycanlıların başlarına gətirilən müsibətlər, işgəncələr artıq Zəfər tariximizin o üzündə qalıb. Bu üzdə sevinc, qürur içində yurduna dönən qarabağlılar, şərqi zəngəzurlular var. Ancaq həmin illər tarixin səhifələrinə əbədi həkk olunub. Bu hadisələr xalqımızın yaddaşından heç vaxt silinməz.

Fevralın 26-da Xocalı Soyqırımı Memorialının açılış mərasimində yaşanan hisslər bunu bir daha təsdiq etdi. Həmin gün Xocalı torpağında kədər, qüssə, sevinc və qürur dolu tarixi anlar yaşandı.

Xocalı Soyqırımı Memorialı Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Xocalı şəhərində ucaldılan Xocalı Soyqırımı Memorialının açılışında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak etdilər. Dövlətimizin başçısı abidənin önünə əklil qoyaraq, 34 il əvvəl qətlə yetirilmiş günahsız soydaşlarımızın xatirəsini ehtiramla andı.

Sonra Prezident İlham Əliyev, birinci xanım və ailə üzvləri Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Görüşdə çıxış edən dövlətimizin başçısı vurğuladı ki, Xocalı soyqırımı Ermənistan dövləti, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır: "Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar". Dövlətimizin başçısı qeyd etdi ki, hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar: "Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir".

Dövlətimizin başçısı qeyd etdi ki, Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Bu kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Memorial Kompleksin açılışında iştirak edən Xocalı sakinlərinin demək olar ki, hər birinin öz yaxınlarını, qohumlarını, doğmalarını itirdiklərini, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşadıqlarını diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi: "Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, ordumuza inam".

Görüşdə söz alan Nərgiz Mahmudovanın 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qəddar ermənilər tərəfindən Xocalı faciəsi törədiləndə 9 yaşı olub. İşğalçıların zülmündən baş götürüb qaçan Nərgiz Mahmudova və ailə üzvləri əsir götürülüb və dəhşətli işgəncələrə məruz qalıblar. Çətinliklə əsirlikdən qurtulsalar da, o zaman aldıqları yaralar bu gün də sağalmayıb: "Donvurma nəticəsində ailə üzvümüzdən beş nəfərin ayağı kəsildi, ikinci qrup əlilik. Mənim atamla anamın ayağının yarası bu günə qədər də sağalmayıb.

Görüşdə çıxış edən Anar Əbdülovun da o vaxt - ailə üzvləri ilə Xocalını tərk edəndə 9 yaşı olub. O gün çəkdikləri müsibətlərdən Anar Əbilov həyacanlanmadan danışa bilmir. İşğaldan azad edilmiş digər ərazilərimiz kimi Xocalıya da qayıdış davam edir. Onlardan biri də Anar Əbilovdur. O, bildirdi ki, Xocalıya atası ilə dönməyi arzu edirdi, lakin bu, qismət olmadı: "Təəssüf ki, atamın timsalında Xocalı, Vətən həsrəti ilə dünyasını dəyişmiş bir çox insanlar bu torpaqlara qayıda bilmədilər. Lakin buna baxmayaraq, biz buradayıq, biz qayıtmışıq, biz dünyasını dəyişmiş həmin insanların yurdlarına, ata yurdumuza qayıtmışıq və onların sönmüş ocaqlarını alovlandırmaqdayıq. Mən də Sizin Böyük qayıdış proqramınız əsasında 2025-ci ilin aprel ayında doğma yurduma - Xocalıma qayıtdım və öz sevimli peşəmi - müəllimlik sənətimi burada, öz doğma məktəbimdə yenidən davam etdirirəm".

Otuz dörd il qabaq göz yaşları və fəryadla tərk etdikləri yurdlarına döndükləri üçün xocalılar dövlətimizin başçısına böyük minnətdarlıqlarını bildirdilər.

Xocalı faciəsinin ağrısı xalqımızın yaddaşında əbədi yaşayacaq. Lakin artıq Xocalı yalnız kədərin deyil, həm də dirçəlişin və ədalətin rəmzidir. Azad Xocalıda xocalılılar bu günlərin sevinci və qüruru, gələcəyə sonsuz ümidlərlə yaşayırlar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan sabitliyin unikal məkanıdır

Azərbaycan Respublikası ümumbəşəri dəyərləri rəhbər tutaraq müharibələri başqa ölkələrin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi konstitusion qaydada rədd edir. Lakin ölkəmiz eyni zamanda ötən dövrün təcrübəsinə əsaslanaraq onun da fərqindədir ki, bu gün heç də dünya nizamı beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplər əsasında qurulmayıb və bir çox hallarda hüququn gücünü gücün hüququ əvəzləyir. Bu isə o deməkdir ki, dövlət nə qədər beynəlxalq hüququn ümumtanınmış prinsiplərini rəhbər tutsa da, ilk növbədə, suverenliyinin, müstəqilliyinin və gələcək rifahının təmini naminə güclü olmalıdır. Çox təəssüflər olsun ki, ən azı 30 illik təcrübədə biz güc və hüquq balansında ədalətsizliyin birbaşa şahidi olmuşuq.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyev və onun layiqli siyasi varisi Prezident İlham Əliyev bu reallıqların fərqində idi. Ötən dövr ərzində nə qədər sülhə, beynəlxalq hüquqa və dialoq mühitinə sədaqətimizi qorumağa çalışsaq da, güc elementinin daha çox önə çıxdığına şahidlik edərək ölkəmizin və xalqımızın maraq və mənafelərinin təmini və müdafiəsi naminə hərtərəfli inkişaf strategiyasına start verilmişdi: "1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələrkən əvvəlki hakimiyyətin səbatsızlığı, idarəetmədə buraxılan boşluqlar, o cümlədən bütün sahələrdə olduğu kimi, iqtisadi sferada da müşahidə olunan hərc-mərclik fonunda inkişaf yolu seçmək və iqtisadi inkişafa nail olmaq, təbii ki, sadə məsələ deyildi. O cümlədən 1600 faizlik inflyasiya, ciddi ərzaq çatışmazlığı, habelə iş yerlərinin olmaması şəraitində dövlətin suverenliyi və hərbi-siyasi gücü naminə addımlar atmaq, bu qəbildən ordu quruculuğunu həyata keçirmək, sərhəd bütövlüyünün təmini istiqamətində işlər aparmaq, demək olar ki, mümkünsüz görünən yol xəritəsi sayıla bilərdi. Lakin Ulu Öndərin qətiyyətli davranışı, ölkədə hərc-mərcliyə son qoyması, ikitərəfli və çoxtərəfli münasibətlər qurmaqla Azərbaycanı beynəlxalq birliyin bərabərhüquqlu üzvü qismində təqdim edə bilməsi, xüsusən "Əsrin kontraktı"nın imzalanması Azərbaycanın real müstəqilliyi və köklü dövlət quruculuğu prosesləri üçün bazis rolunu oynadı. Ulu Öndərin Azərbaycanda başıpozuq dəstələri sıradan çıxarması, vahid ordu quruculuğu prosesinə start verməsi, o cümlədən Silahlı Qüvvələrdə islahatların başlanmasına nail olması ölkəmiz üçün yeni dövr başlatdı. Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməsi, müstəqilliyin bütün çalarlarının daha da möhkəmləndirilməsi, o cümlədən tam iqtisadi müstəqilliyə nail olması, ordu quruculuğu sahəsində Azərbaycan dövlətçilik tarixinin ən irimiqyaslı islahatlarını həyata keçirməsi, qlobal miqyasda infrastruktur layihələrini çoxsaylı maneələrə baxmayaraq, Azərbaycanın öz gücü hesabına reallaşdıra bilməsi, habelə milli kimliyə bağlı, vətəni və torpağı üçün hər bir fədakarlığa hazır gəncliyin yetişdirilməsi dövlətçilik tariximizin yeni dövrünü başlatdı".



Deputat qeyd edib ki, dövlət başçısının bu il fevralın 26-da Xocalı Soyqırımı Memorialının açılışındakı çıxışı zamanı da ifadə etdiyi kimi: "Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm ordumuzun peşəkarlığını artırdıq, eyni zamanda əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq".

B.Məhərrəmov deyib ki, ölkəmizin Vətən müharibəsi və antiterror tədbirlərində tarixi zəfəri, suverenliyimizin və sərhəd bütövlüyümüzün, o cümlədən müstəqilliyimiz üzərində təsir rıçaqları kimi çıxış edə biləcək elementlərin aradan qaldırılmasının təmin olunması Azərbaycana Cənubi Qafqaz kimi mürəkkəb bir bölgədə təhlükəsizlik adasına çevrilməyə imkan verib: "Nəticədə, dövlət başçımızın təbirincə desək, dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bu gün Azərbaycan regionda özünü təhlükəsiz ölkə kimi güc və imkanları hesabına təsdiq edib. Cənab İlham Əliyevin qətiyyəti hesabına zamanında reallaşan layihələr, habelə ölkəmizin Orta dəhlizin vacib seqmenti kimi öz rolunu Zəngəzur dəhlizinin simasında daha da artırmaq perspektivi, nəticə etibarilə qlobal iqtisadi maraqların regionumuzda bərabərhüquqlu əsasda uzlaşdırılmasına gətirib çıxarıb".

Deputat vurğulayıb ki, bir zamanlar bu bölgənin coğrafi imkanları və təbii sərvətləri uğrunda mübarizə aparan güclər özü məhz Prezident İlham Əliyevin uğurlu geosiyasi gedişləri və strateji addımları nəticəsində ən azı elə öz maraqları naminə hansısa münaqişənin əməkdaşlıqdan daha faydalı olmayacağına inanmağa başlayıblar. Bu gün istər şimal sərhədlərimiz boyu, istər cənub sərhədlərimizdə müharibələrin, çoxsaylı qırğınların, bəşəriyyət üçün təhdid sayılan silahların da tətbiq edilməsi ilə gərginləşən qarşıdurmaların fonunda Azərbaycanda sülhün, sabitliyin hökm sürməsi, ictimai qayda və təhlükəsizliyin tam mənada bərqərar olunması istər beynəlxalq münasibətlər sistemi üçün öyrəniləcək təcrübə olması baxımdan, istərsə də BMT Nizamnaməsində təsbit olunmuş insanların sülh və əməkdaşlıq şəraitində yaşaması hüququnun təmini baxımdan qlobal vizyon üçün ustad dərsi hesab edilə bilər. "Bu gün, nəticə etibarilə, Azərbaycan Respublikası ətraf regionlardan fərqli olaraq tam və qarantiyalı sülh şəraitində yaşayır. Bu reallığın ən qiymətli tərəfi isə ondan ibarətdir ki, prosesin hərəkətverici qüvvəsi və dayanıqlılığının təminatını hansısa kənar dövlət yox, məhz Azərbaycan Respublikası və şəxsən cənab İlham Əliyev həyata keçirir. Dövlət başçımızın özünün də ifadə etdiyi kimi, bu gün Azərbaycan elə bir qüdrətə sahibdir ki, heç bir beynəlxalq subyektin ölkəmizin hərbi-siyasi yolla yaratdığı bu reallığı, sülh və dayanıqlı sabitlik şəraitini dəyişməyə nə gücü, nə imkanı, nə də perspektivi var", - deyə B.Məhərrəmov əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Sarsılmaz iradə, mütləq qələbə

### Dövlət başçısının yürütdüyü düzgün siyasi kurs milli maraqlarımızı qətiyyətlə təmin etdi

"Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi".

Prezident İlham Əliyevin fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışı zamanı bəyan etdiyi bu fikirlər müasir Azərbaycanın keçdiyi şərəfli yolun ifadəsidir. 44 günlük Vətən müharibəsi və cəmi bir sutkalıq antiterror tədbirləri ilə qazanılan parlaq zəfər, təkcə regionun deyil, dünya hərb tarixinin ən nadir hadisələrindən biri kimi qəbul edilir. Son onilliklər ərzində beynəlxalq müstəvidə Azərbaycanın Qarabağda əldə etdiyi qətiyyətli qalibiyyətə bərabər ikinci bir qələbə nümunəsi tapmaq qeyri-mümkündür.

#### Qlobal təzyiqlərə qarşı milli mübarizə

Bu gün dünya yenidən bölüşdürülür, güc mərkəzləri arasında iqtisadi və siyasi üstünlük uğrunda savaşlar amansız xarakter alır. Planetin müxtəlif nöqtələrində alovlanan münaqişə ocaqları göstərir ki, bir çox hallarda dövlətlərin ərazi bütövlüyü və daxili sabitliyi ciddi təhlükə altındadır. Yer üzünün "qaynar qazan" kimi qaynadığı bir dövrdə Azərbaycanın öz suverenliyini tam bərpa etməsi və separatizmə birdəfəlik son qoyması onu dünyada şəriksiz qalib statusuna yüksəldib.

Təəssüf ki, beynəlxalq hüququn tapdanması müasir dünyada adi hala çevrilib. 1993-cü ildə Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin onilliklər boyu kağız üzərində qalması beynəlxalq ədalətsizliyin bariz nümunəsi idi. Həmin dövrdə Azərbaycan işğal faktı ilə üz-üzə qaldı, on minlərlə şəhid verdi, bir milyondan çox qaçqın və məcburi köçkün axınına məruz qaldı.

Respublikamız müstəqilliyinin ilk illərində həm hərbi, həm də iqtisadi böhranla üz-üzə qalarkən, dünya erməniçiliyi və bəzi havadar dövlətlər ölkəmizə qarşı diplomatik cəbhə açmışdı. ABŞ-dəki ədalətsiz 907-ci düzəliş, ATƏT-in Minsk qrupunun vaxtuzatma taktikası, digər təzyiqlər rəsmi Bakını işğal faktı ilə barışdırmağa yönəlmişdi.

Memorialın açılışında dövlətimizin rəhbəri həmin çətin dövrləri belə xatırlatdı: "İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək".

Bu təzyiqlər təkcə diplomatik kanallarla deyil, həm də geniş informasiya hücumları ilə müşayiət olunurdu. Lakin Azərbaycan rəhbərliyinin qətiyyəti bütün bu ssenariləri alt-üst etdi.

Ölkəmizin rəhbəri əlavə etdi ki, bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı: "Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu".

#### Güclü iqtisadiyyatdan modern orduya

2003-cü ildən başlanan və hərtərəfli inkişafa hesablanan milli strategiya Azərbaycanı addım-addım bugünkü zirvəyə daşıdı. Bu dövr ərzində dövlətin əsas prioriteti heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurmaq və ordunu ən müasir standartlara uyğun modernləşdirmək oldu. Hər bir diplomatik gediş, hər bir iqtisadi layihə birbaşa ərazi bütövlüyümüzün bərpasına xidmət edirdi.

Həyata keçirilən uzaqgörən siyasət sayəsində Azərbaycan öz gücü ilə həm BMT qətnamələrini icra etdi, həm də ATƏT-in Minsk qrupunun 30 il həll edə bilmədiyi Qarabağ düyününü çözərək Cənubi Qafqazda yeni reallıq yaratdı. Bu tarixi zəfər regionda dayanıqlı sülhün əsasını qoydu. Ötən il avqustun 8-də Vaşinqtonda Ermənistan ilə Azərbaycan arasında imzalanan Birgə Bəyannamə və sülh müqaviləsi mətninin paraflanması regionda əməkdaşlıq üçün yeni üfüqlər açdı.

Onu da xüsusi vurğulayaq ki, Vaşinqton sammitində razılaşdırılan TRIPP (Zəngəzur dəhlizi) ABŞ-nin dəstəyi ilə regional nəqliyyat və tranzit layihələrinin genişləndirilməsinə mühüm töhfə verəcək.

Xocalı Memorialının açılışında Prezident İlham Əliyev bu günün reallığını qətiyyətlə ifadə etdi: "…Bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".

Bütün bunlar bir daha sübut etdi ki, ədalət gec-tez zəfər çalır. Bunun üçün sadəcə beynəlxalq bəyanatlar deyil, milli birlik, sarsılmaz iradə və real güc lazımdır. Azərbaycanın yaratdığı nümunə sayəsində beynəlxalq aləm də buna şahidlik etdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurun hər bir guşəsində dalğalanan üçrəngli bayrağımız təkcə suverenliyimizi deyil, həm də xalqımızın öz taleyinə sahib çıxmaq əzmini nümayiş etdirir.

Xocalı Memorialının açılış mərasimindəki çıxışını bu mənəvi borcun yerinə yetirilməsi ilə yekunlaşdıran dövlət başçısının sözləri elə həm də xalqımızın qisas və ədalət hissinin təntənəsi oldu: "O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın".

Prezident İlham Əliyevin Xocalıdan səsləndirdiyi bu fikirlərini həm də xəbərdarlıq bəyanatı kimi dəyərləndirsək, yanılmarıq. Azərbaycan öz gələcəyini şəxsən inşa edən, bölgədə sülhün və sabitliyin əsas qarantına çevrilmiş güclü bir dövlətdir. Bu tarixi nailiyyət gələcək nəsillər üçün həm qürur mənbəyi, həm də dövləti qorumağın, hər zaman güclü olmağın ən böyük örnəyidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# *Sənaye zonaları:* regionların iqtisadi potensialının lokomotivi

**Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın sürətli və davamlı inkişafına nail olmağın ən səmərəli yollarından biri biznes mühitinin inkişafı, sahibkarlığa geniş meydan verilməsidir. Xüsusilə son yarım əsrdə bir çox ölkələr prioritet istehsal sahələri üzrə azad iqtisadi zonalar və sənaye parkları yaratmaqla milli iqtisadiyyatın dirçəlişində, investisiya axınının artmasında və yeni iş yerlərinin açılmasında uğurlar əldə ediblər.**



Azərbaycan da dünya təcrübəsindən faydalanaraq regional iqtisadi inkişafı dəstəkləyən yeni sənaye parklarının yaradılmasına yönəlmiş addımlar atıb. Bu gün ölkəmizdə 8 sənaye parkı, 5 sənaye məhəlləsi ölkənin regional sənaye potensialının gücləndirilməsində mühüm rol oynayır. Bir müddət əvvəl Naxçıvan və Qərb sənaye parklarının yaradılmasına başlanılıb. Həmin layihələr də regionun iqtisadi inkişafına müsbət təsir göstərəcək, yeni iş yerlərinin açılması və yerli istehsalın artması ilə ölkə iqtisadiyyatını gücləndirəcək, bölgənin investisiya cəlbediciliyini artıraraq xarici sərmayələrin cəlb olunmasına şərait yaradacaq. Qeyd edək ki, sənaye zonaları sahibkarlara torpaq, infrastruktur, vergi və gömrük sahəsində mühüm güzəştlər təqdim etməklə istehsalın genişlənməsinə, ixracın artmasına və yerli məhsulların rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradır. Regionlarda yeni iş yerlərinin açılması isə sosial rifahın yüksəlməsinə və iqtisadi fəallığın artmasına səbəb olur.

Sənaye zonalarının inkişafı və burada tətbiq olunan güzəştlər öz növbəsində müsbət nəticələrin əldə olunmasına zəmin yaradır. İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) idarə heyətinin sədri Seymur Adıgözəlov mətbuata açıqlamasında bildirib ki, 2025-ci ildə 25 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident statusu alıb, nəticədə 14 yeni müəssisə fəaliyyətə başlayıb: "Bu müəssisələr tərəfindən ümumilikdə 136 milyon manat investisiya yatırılıb və 1100-dən artıq daimi iş yeri yaradılıb. Eyni zamanda sənaye parklarında tətbiq olunan vergi və gömrük güzəştləri rezidentlərə ötən il 42 milyon manatdan artıq vəsaitə qənaət imkanı verib. Bu da biznes mühitinin daha səmərəli və dayanıqlı olmasını təmin edib. 2025-ci ildə sənaye zonalarında ümumilikdə 4 milyard manatlığa yaxın məhsul satışı həyata keçirilib ki, bunun da 1,2 milyard manatlığı ixracın payına düşüb. 2024-cü illə müqayisədə istehsal 21,1, ixrac isə 13,4 faiz artıb. Bu gün sənaye zonalarında istehsal edilən məhsullar dünyanın 70-dən çox ölkəsinə ixrac olunur".

Ötən il neftdənkənar məhsulların istehsalında sənaye zonalarının payı 19,1, ixracında isə 33,9 faiz olub. Bu rəqəmlər açıq göstərir ki, sənaye zonaları artıq ölkə iqtisadiyyatının əsas dayaqlarından birinə çevrilib. İZİA-nın idarə etdiyi sənaye zonalarında 2024-cü ilin sonuna qədər 138 rezident və rezident olmayan 13 sahibkarlıq subyekti qeydiyyatdan keçib. Ümumi investisiya portfeli 8,7 milyard manatdan çox olan layihələr üzrə faktiki olaraq 7 milyard manat sərmayə yatırılıb, nəticədə 82 yeni müəssisə fəaliyyətə başlayıb və 9700-dən artıq daimi iş yeri açılıb. Bütün bu göstəricilər sübut edir ki, sənaye zonaları ölkədə istehsal və ixracı genişləndirir, regionlarda iqtisadi fəallığın artmasını, yeni iş yerlərinin yaradılmasını və sosial rifahın yüksəlməsini təmin edən güclü mexanizmdir.

Sənaye zonaları təkcə milli iqtisadiyyatın dayanıqlı inkişafına xidmət etməklə kifayətlənmir, ilbəil ölkəmizin beynəlxalq iqtisadi əməkdaşlıq mövqeyini gücləndirən strateji platformaya çevrilir. Bu platforma beynəlxalq əməkdaşlıq sahəsində genişlənən imkanlar və strateji əlaqələr yaratmaq üçün böyük potensiala malikdir. Xarici investorlara təqdim olunan əlverişli vergi və gömrük güzəştləri, müasir infrastruktur və geniş istehsal imkanları ölkəyə investisiya axınını artırır, yerli sahibkarlıqla xarici şirkətlər arasında effektiv əməkdaşlıq imkanları yaradır. Beynəlxalq tərəfdaşlıqlar sayəsində texnologiya transferi, innovativ layihələrin həyata keçirilməsi və yüksəkkeyfiyyətli məhsul istehsalı sürətlənir. Eyni zamanda xarici investorların iştirakı regional sənaye potensialının daha balanslı inkişafına və Azərbaycanın neftdənkənar ixrac imkanlarının genişlənməsinə ciddi töhfə verir.

Bu günlər İZİA ilə "China Datang Overseas Investment" şirkəti arasında Abşeron yarımadasında "Yaşıl Enerji Sənaye Parkı"nın yaradılması üzrə Anlaşma Memorandumu və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə Sumqayıt Sənaye Parkında dəniz suyunun duzsuzlaşdırılması layihəsi üzrə torpaq sahəsinin icarəsinə dair müqavilə imzalanıb. Bu əməkdaşlıqlar və beynəlxalq layihələr ölkəmizin sənaye zonalarının xarici investorlar üçün cəlbediciliyini daha da artırır və onların iqtisadi potensialının inkişafına imkan yaradır. İZİA sədri deyilənləri statistik rəqəmlərin dili ilə belə bəyan edib: "Əgər 2016-cı ildə cəmi 10,4 milyon xarici investisiya cəlb olunmuşdusa, yalnız 2025-ci ildə bu rəqəm 87,9 milyon manat səviyyəsinə çatıb. Bu rəqəmlər iqtisadi zonalarımızın beynəlxalq investorlar üçün cəlbediciliyinin davamlı olaraq artdığını aydın şəkildə göstərir. Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident qeydiyyatdan keçib. 2025-ci ildə Sumqayıt Sənaye Parkında 2,2 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 1,1 milyard manatı ixracın payına düşüb". Bütün bunlar bir daha onu göstərir ki, sənaye zonaları Azərbaycanın neftdənkənar iqtisadiyyatında strateji rol oynayan dayaqlardır.

Əlavə edək ki, beynəlxalq əməkdaşlıqlar və xarici investisiyalar vasitəsilə texnologiya transferi, innovativ layihələrin həyata keçirilməsi və məhsul keyfiyyətinin yüksəlməsi sürətlənir. Öz növbəsində bu da ölkəmizin iqtisadi imicini gücləndirir və məhsullarımızın dünya bazarlarında daha çox rəqabətqabiliyyətli olması ilə nəticələnir. Yeni sənaye parklarının yaradılması və mövcud zonaların inkişafı Azərbaycanın dayanıqlı iqtisadi modelinin möhkəmlənməsinə, regionlarda balanslı sənaye potensialının formalaşmasına və qeyri-neft sektorunun inkişafına imkan yaradır. Başqa sözlə, sənaye zonaları Azərbaycanın gələcəyinin iqtisadi dayaqlarıdır və ölkəni davamlı inkişaf yoluna çıxaran strateji platformalardır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# 907-ci düzəliş birdəfəlik ləğv edilməlidir

**Azərbaycan-ABŞ münasibətlərinin inkişafı və Cənubi Qafqazda yeni geosiyasi reallıqlar fonunda 907-ci düzəlişin tam ləğvi məsələsi yenidən aktuallaşıb. Uzun illərdir müzakirə mövzusu olan bu məhdudiyyət regionda yaranan yeni reallıqlar və strateji tərəfdaşlıq prinsipləri ilə artıq uzlaşmır.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, 907-ci düzəliş ABŞ-nin Azərbaycana birbaşa dövlət yardımını məhdudlaşdırmaq məqsədilə qəbul edilib və həmin dövrdə regionda davam edən münaqişə və qeyri-sabitlik şəraiti bu qərarın əsaslandırılması kimi təqdim olunurdu: "Amma bu iddiaların heç bir məntiqi əsası yox idi. 2020-ci il 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda siyasi və hərbi vəziyyət əsaslı şəkildə dəyişib. Azərbaycan ərazi bütövlüyünü bərpa edib, regionda yeni əməkdaşlıq platformaları formalaşıb və nəqliyyat-kommunikasiya xətləri üzrə perspektivlər genişlənib. Bu kontekstdə 907-ci düzəlişin qüvvədə saxlanması ikitərəfli münasibətlərin ruhuna uyğun gəlmir".

Deputat xatırladıb ki, 907-ci düzəlişin icrasının dayandırılması ölkəmiz üçün ən böyük siyasi uğurlardan biridir. Azərbaycan hər zaman bu sənədi çox böyük ədalətsizlik hesab edib. İşğala və etnik təmizləməyə məruz qalan ölkəyə qarşı belə bir qərəzli addımın atılması yolverilməz idi. Ermənistana qarşı hər hansı blokadadan söhbət getmədiyi halda, ölkəmizə qarşı belə bir qərəzli yanaşma sərgilənmişdi. Prezident İlham Əliyev dəfələrlə Azərbaycana hər zaman ehtiyac olacağını ovaxtkı administrasiyanın yüksəkvəzifəli şəxslərinə çatdırmışdı.

N.Məmmədova deyib ki, bu gün Azərbaycan kifayət qədər etibarlı və vacib tərəfdaşdır: "Blokada" iddiasına gəlincə, cənab Prezidentin də söylədiyi kimi, nə o vaxt blokada var idi, nə də bu gün. "Bu gün Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir, yollar açıqdır və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Hansı blokadadan söhbət gedə bilər?! Əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu, hazırda yoxdur", - deyə deputat bildirib.

O qeyd edib ki, rəsmi Bakı Konqres tərəfindən bu absurd düzəlişin tamamilə aradan qaldırılmasını gözləyir. Bu addım həm də ABŞ-nin regional siyasətdə daha çevik hərəkət etməsinə imkan yaradacaq. ABŞ-də də praqmatik siyasətçilər hesab edirlər ki, hazırkı məhdudiyyətlər mövcud reallıqlara uyğun deyil və tərəfdaşlıq əlaqələrinə əngəl törədir. Azərbaycanın enerji təhlükəsizliyi, regional stabillik və antiterror sahəsində ABŞ üçün strateji tərəfdaş olması nəzərə alınarsa, 907-ci düzəlişin saxlanması məqsədəuyğun deyil.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Rəqəmsallaşma vahid mərkəzdən idarə olunacaq

**Azərbaycanın rəqəmsallaşma kursu kiçikmiqyaslı layihələr dövrünü geridə qoyaraq, fundamental və sistemli dəyişiklik mərhələsinə adlayıb. Hazırda bu proses təkcə texnoloji infrastrukturun yenilənməsi yox, dövlət idarəçilik paradiqmasının dəyişməsi ilə baş verir. Ümumiyyətlə, rəqəmsal keçid iqtisadi dayanıqlılığın və milli təhlükəsizliyin ana xəttini təşkil edir. 2026-cı il fevralın 11-də Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən müşavirə ölkəmizin texnoloji gələcəyini dizayn edən tarixi dönüş nöqtəsi oldu.**

Dövlət başçısının müvafiq fərmanı ilə rəqəmsallaşma, elektron hökumət, süni intellekt sferalarında prioritetlərin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası təsis edildi. Bu ali kollegial orqanın yaradılması dövlət siyasətinin və rəqəmsallaşma prosesinin vahid mərkəzdən koordinasiya olunmasını təmin edəcək və innovativ iqtisadi modelə keçidi sürətləndirəcək.

Xatırladaq ki, müşavirədə müəyyən olunmuş hədəflərə uyğun olaraq "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" da təsdiqlənib. Bu strateji yol xəritəsi yaxın üç il ərzində ölkənin texnoloji mənzərəsini dəyişdirəcək kompleks islahatları, beynəlxalq reytinqlərdə mövqelərin yüksəldilməsini və rəqəmsal sektorun ÜDM-dəki payının artırılmasını hədəfləyir.

Müasir dövrdə rəqəmsal inkişaf anlayışı təkcə texnologiya deyil, təhsildən elmə qədər bütün sahələri əhatə edən rəqəmsal həyat tərzi deməkdir. Sistemli siyasət, insan kapitalına davamlı investisiyalar və effektiv koordinasiya sayəsində ölkəmiz yaxın onillikdə regionun ən qabaqcıl rəqəmsal iqtisadiyyat mərkəzinə çevrilmək potensialına malikdir.

Xüsusilə vurğulamaq lazımdır ki, dövlət başçısı İlham Əliyevin fərmanı ilə rəqəmsallaşma üzrə ayrıca şuranın təsis edilməsi və bu quruma birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədr təyin olunması müstəsna əhəmiyyətli sahəyə dövlət səviyyəsində diqqətin və məsuliyyətin miqyasını göstərir, ictimai etimadı əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bu təyinat, ilk növbədə, dövlət başçısının texnoloji transformasiyaya həssaslığının və prosesə nə dərəcədə önəm verməsinin bariz nümunəsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın indiyədək ona həvalə olunmuş bütün dövlət və ictimai vəzifələri, mürəkkəb humanitar və sosial layihələri yüksək peşəkarlıq və səmərəliliklə icra etməsi rəqəmsallaşma kimi strateji sahədə də bütün hədəflərə qısa zamanda nail olunacağına dair sarsılmaz əminlik yaradır. Mehriban xanımın təhsil, operativ idarəçilik və digər sahələrdəki zəngin təcrübəsi rəqəmsal bacarıqlara malik yeni nəslin yetişdirilməsi və əmək bazarının müasir tələblərə uyğunlaşdırılması prosesini daha da sürətləndirəcək.

Ölkəmizin Birinci vitse-prezidentinin milli iqtisadiyyatın rəqəmsal modelə keçidi kimi həyati məsələyə birbaşa başçılıq etməsi Azərbaycanı regionun texnoloji mərkəzinə çevirəcək. Bu, həm də qlobal süni intellekt nəhəngləri, xüsusən ABŞ şirkətləri üçün həlledici siqnaldır. Yüksək etimada və beynəlxalq şöhrətə malik olan Mehriban xanım Əliyevanın şuraya rəhbərliyi dünyanın işgüzar dairələri və qlobal texnologiya şirkətləri üçün ən yüksəksəviyyəli siyasi zəmanət və investisiya risklərinin minimuma endirilməsi deməkdir. Nüfuzlu rəhbər faktoru həm xarici, həm də yerli sahibkarlar üçün təhlükəsizlik lövbəri funksiyasını yerinə yetirir, layihələrin iqtisadi səmərəliliyini və cəlbediciliyini artırır.

Şuranın fəaliyyəti sayəsində dövlət menecmentinin effektivliyi yüksələcək, cəmiyyətin bütün təbəqələri üçün xidmətlərə bərabər və şəffaf çıxış imkanı yaranacaq. Qurumlarüstü səlahiyyətlərə sahiblik texnoloji yenilənmənin hətta innovasiyalara meyilli olmayan mühafizəkar sahələrə də nüfuz etməsinə təkan verəcək. Nəhəng korporasiyaların öz mənfəətlərinin bir hissəsini texnoloji tərəqqiyə yönəltməsi stimullaşacaq. Bu da zəncirvari reaksiya yaradaraq özəl sektorun prosesə qoşulmasına səbəb olacaq. Eyni zamanda dövlət aparatında qurumlararası koordinasiya maksimum dərəcədə sürətlənəcək, bürokratik maneələr aradan qaldırılacaq, qərar qəbulu sadələşəcək, resursların idarə olunmasında israfçılığa yol verilməyəcək. Elektron xidmətlər insanların gündəlik həyatını daha da asanlaşdıracaq. Yəni rəqəmsallaşma texnoloji yenilik olmaqla yanaşı, vətəndaş məmnuniyyətinə xidmət edən bir vasitə olacaq.

Nəzərə alaq ki, rəqəmsallaşma çoxşaxəli prosesdir və bəzən müxtəlif dövlət qurumları arasında koordinasiya çətinlikləri üzə çıxır. Mehriban xanım Əliyevanın şuraya sədrliyi rəqəmsallaşma layihələrinin "yarıyolda qalma" riskini sıfıra endirir və bütün dövlət strukturlarının vahid rəqəmsal strategiya ətrafında sıx birləşdirilməsinə inam yaradır.

Rəqəmsal İnkişaf Şurasının təsis edilməsi Azərbaycanın qlobal trendlərlə ayaqlaşmaq üçün seçdiyi yeni və çevik strukturlaşma modelidir. Tam əminliklə demək olar ki, Birinci vitse-prezidentin sarsılmaz iradəsi və sistemli yanaşması Azərbaycanı yaxın onillikdə regionun ən qabaqcıl rəqəmsal iqtisadiyyat mərkəzinə çevirəcək. Nəticə etibarı ilə Mehriban Əliyevanın yeni quruma rəhbərliyi rəqəmsal transformasiyanı dövlət idarəçiliyinin bütün qatlarına sirayət etdirəcək. Bu, Azərbaycanın təkcə regionda deyil, qlobal texnologiya və süni intellekt aləmində mühüm oyunçuya çevriləcəyinə dair ən güclü arqumentdir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# "Şimal-Cənub" beynəlxalq marşrut üzrə əməkdaşlıq məsələləri müzakirə olunub

## Bu marşrutun tam gücü ilə fəaliyyət göstərməsi qlobal ticarətin inkişafına təkan verəcək

**Yaxın Şərqdə baş verən qanlı hadisələr fonunda dünya üçün bir daha ticarət nəqliyyat marşrutlarının nə qədər önəmli olması üzə çıxdı. Bu konfliktlərdə dünya mediasında ən çox müzakirə olunan mövzu İranın Hörmüz boğazını bağlayıb-bağlamayacağı idi. Çünki boğazın bağlanması dünya iqtisadiyyatını növbəti böhrana gətirib çıxara bilər.**




Müasir geosiyasətdə ticarət marşrutlarına xüsusi diqqət verilməsi təsadüfi deyil. Dövlətlərin iqtisadi çıxarlarının siyasi ambisiyalarını üstələdiyi dünyada ticarət marşrutları sıradan məsələ deyil. Hazırda istehsal-satış əməliyyatlarının sürəti qlobal iqtisadiyyatın başlıca tələblərinə çevrilib. Müasir iqtisadi münasibətlərdə sürətli istehsal və satışı həyata keçirənlər rəqabətdən qazancla çıxırlar. O üzdən tədarük zəncirinin fasiləsizliyi və hazır məhsulun satışı ticarət marşrutlarının səmərəliliyindən asılıdır.

İndiki halda Azərbaycan dünyanın əsas tranzit ölkələrindən biridir. Bunun başlıca səbəbi Azərbaycanın qlobal ticarətdə mühüm əhəmiyyətə malik iki marşrutda - Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda qovşaq ölkə olmasıdır. Odur ki, bir çox hallarda Rusiya və İranla aramızda müxtəlif mövzularda fikir ayrılığı olsa da, nəqliyyat məsələlərində Azərbaycan hər iki qonşuya qlobal bazarlara çıxışı təmin etdiyinə görə anlaşırıq.

Məlumdur ki, Rusiya-Ukrayna savaşı şimal qonşumuzu çıxılmaz vəziyyətdə qoyub. Müharibə Rusiyanın Asiya ilə Avropa arasında mühüm tranzit ölkəsi olmaq statusunu itirməsinə gətirib çıxarıb. Bununla yanaşı, Rusiyanın qlobal bazarlara çıxışında problemlər yaranıb. Bir sözlə, Rusiya iqtisadiyyatının ayaqda qalması üçün onun qlobal bazarlara çıxışını təmin edən marşrutlara ehtiyacı var.

Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyev Rusiya hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul etmişdir. Görüşdə müxtəlif məsələlərlə yanaşı, iki ölkə arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi geniş müzakirə olunmuş, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə birgə fəaliyyətin davam etdirilməsinin vacibliyi xüsusi vurğulanmışdır.

Aleksey Overçukla Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev arasında keçən görüşdə də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi, onun buraxılış qabiliyyətinin artırılması və nəqliyyat-logistika infrastrukturunun təkmilləşdirilməsi məsələləri müzakirə mövzusu olmuşdur. Görüşdə həmçinin iki ölkə arasında dövlət sərhədindəki buraxılış məntəqələrinin səmərəli işi və onların gələcəkdə daha da möhkəmləndirilməsinin vacibliyi qeyd edilmişdir.

Hazırda Rusiya qarşılaşdığı çətin problemlərə görə "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə planlaşdırıldığı işləri görə bilmir. Dəhlizin tranzit imkanlarının artırılması üçün onun müasir dövrün tələblərinə uyğun modernləşdirilməsi lazımdır. Amma indiki halda şimal qonşumuzun bu marşruta iri məbləğdə investisiya qoymaq və müasir texnologiyaları tətbiq etmək imkanı yoxdur. Bu səbəbdən "Şimal-Cənub" dəhlizində işlər ləng gedir. Azərbaycan tərəfi isə öz ərazisində marşrutun modernləşdirilməsi üçün çox işlər görüb.

Yeri gəlmişkən, qeyd edək ki, ötən il Azərbaycandan keçən "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə 9 milyon 289 min ton yük daşınıb. 2030-cu ildə bu rəqəmin 32 milyon tona çatdırılması proqnozllaşdırılır.

Onu da xatırladaq ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsi olan Rəşt-Astara dəmir yolu layihəsinin praktiki icrasına gecikmə ilə 2026-cı il aprelin 1-də başlanacaq. Tikintinin gecikməsinin səbəbi bir sıra məsələlərdə Rusiya ilə İranın razılaşa bilməməsi idi. Rusiyanın energetika naziri Sergey Tsivilyov jurnalistlərə bildirib ki, tərəflər əvvəllər layihənin başlanmasını gecikdirən bütün mübahisəli məsələləri, o cümlədən torpaq qeydiyyatı və lazımi güzəştlərin əldə edilməsi problemlərini həll edə biliblər. Nazir qeyd edib ki, layihənin başlanması ilə bağlı yekun razılaşmanın aprelin 1-də Rusiyada keçiriləcək Nəqliyyat Həftəsi zamanı imzalanması planlaşdırılır.

İranda tikilməkdə olan Rəşt-Astara dəmir yolu xətti (162 km) "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb qolunda əsas çatışmayan halqadır. Bu xətt Fars körfəzi limanlarına fasiləsiz nəqliyyat bağlantısını təmin edəcək. Layihənin ümumi dəyəri 1,6 milyard avro təşkil edir və Moskva ilə Tehran layihələndirmə, tikinti, eləcə də mal və xidmətlərin tədarükünü birgə maliyyələşdirəcək.

İnşası 2026-cı ildə başlansa və 3 il ərzində başa çatsa, xətt təxminən 2030-cu ilədək tam gücü ilə işləyə biləcək və 2028-ci ilin yanvarından ilkin mərhələdə 5 milyon ton yükün daşınması təmin olunacaq. Gələcəkdə isə bu göstəricinin 15 milyon tona çatdırılması nəzərdə tutulur. Bu, Azərbaycan iqtisadiyyatına da ciddi gəlir gətirəcək, eyni zamanda geosiyasi baxımdan ölkəmizə ciddi dividendlər qazandıracaq.

***Rüstəm KAMAL, "Azərbaycan"***

REGİONLAR

# Şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılmışdır

**Göygöl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılmışdır.**



Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov, Türkiyə Respublikasının Gəncə şəhərindəki baş konsulu Recep Öztop, Gəncə İmamzadə Ziyarətgah Kompleksi Dini İcmasının sədri Hacı Tahir Abbasov, şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdikləri iftar süfərsində Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda, canından keçmiş şəhidlərimizin xatirələri birdəqiqəlik sükutla yad olunmuşdur. Sonra rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək ölkəmizdə dini-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan danışmış, tolerantlığın və həmrəyliyin nümunəvi səviyyədə olduğunu diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində 30 illik işğala son qoymuşdur.

Sonra ağsaqqallar çıxış edərək Ramazan ayının mənəvi paklıq, mərhəmət və şəfqət ayı olduğunu qeyd etmiş, Müqəddəs Qurani-Kərimdən ayələr oxuyub dualar etmişlər.

Şəhid ailələrinin üzvləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildimişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Naxçıvan: Qədim karvan yolundan müasir nəqliyyat qovşağına

**Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan coğrafi mövqeyi, strateji əhəmiyyəti və qədim tarixilə seçilən diyardır. Bir bölgənin inkişafı təkcə onun mədəni irsi və sənaye potensialı ilə deyil, həm də insanların hərəkətini, əlaqəsini və gündəlik həyatını təmin edən yol şəbəkəsi ilə ölçülür. Yol tikintisi ölkənin inkişafı, vətəndaşların firavan yaşayışı deməkdir. Müasir yol şəbəkələri olmadan yüksək iqtisadi nailiyyətlər əldə etmək mümkün deyil. Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir". Buna görə də Naxçıvanda yol infrastrukturunun yenilənməsi, genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması diqqətdə saxlanılır.**

Azərbaycanda yol-nəqliyyat kompleksinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sahəsində də əsaslı dəyişikliklərə və inkişafa təkan verilmiş, avtomobil yollarının bərpası və yenidən qurulmasına əlverişli şərait yaranmışdır. Ümummilli Liderin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev də nəqliyyat sektorunun inkişafını prioritet istiqamət kimi müəyyənləşdirmişdir. Son illər yol-nəqliyyat sistemində, xüsusilə avtomobil yolları ilə bağlı bir sıra irimiqyaslı layihələr reallaşdırılır. Dövlətimizin başçısının bu sahədə imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində kompleks tədbirlər görülməkdədir.

Bu sahədə irəli sürülən vəzifələr muxtar respublikada da uğurla həyata keçirilir, aparılan genişmiqyaslı quruculuq işlərində yol tikintisinə xüsusi diqqət yetirilir. Prezidentin müvafiq sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamət müəyyən olunmuşdur ki, onlardan biri də nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən müasir avtomobil yol layihələrinin hazırlanmasıdır. Dövlət proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Böyük İpək yolunun üzərində yerləşən Naxçıvan tarixin bütün mərhələlərində beynəlxalq ticarət və iqtisadi əlaqələrin inkişafında mühüm rol oynamışdır. Ümummilli Liderin "Böyük İpək yolu keçmişdən başlasa da, gələcəyə doğru gedən yoldur. O, xalqımızı firavanlığa və tərəqqiyə çıxaracaqdır" fikri bu gün də öz aktuallığını qoruyur və strateji inkişaf xəttinin əsas ideya mənbələrindən biri kimi çıxış edir. Məhz bu siyasi kursun davamı olaraq Prezident İlham Əliyevin qətiyyətli və prinsipial siyasəti nəticəsində regionda yeni geoiqtisadi reallıqlar formalaşmış, Zəngəzur dəhlizinin açılması perspektivi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bu dəhliz yalnız tarixi ədalətin bərpası deyil, həm də Naxçıvanın birbaşa quru bağlantısı vasitəsilə Azərbaycanın əsas hissəsi və beynəlxalq nəqliyyat şəbəkələri ilə inteqrasiyasını təmin edəcək mühüm strateji layihədir.

Dünya əhəmiyyətli Böyük İpək yolunun Naxçıvan ərazisindən keçən hissəsinin müasir standartlara uyğun bərpası, magistral yolların yenidən qurulması və nəqliyyat-logistika infrastrukturunun gücləndirilməsi Zəngəzur dəhlizinin açılması fonunda daha geniş iqtisadi imkanlar yaradacaq. Bu proses muxtar respublikanın tranzit potensialını artırmaqla yanaşı, beynəlxalq yük və sərnişin daşımalarında rolunu əhəmiyyətli dərəcədə gücləndirəcək, regionu "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının mühüm qovşaqlarından birinə çevirəcək.

Beləliklə, Ulu Öndərin strateji baxışları və dövlət başçısının qətiyyətli siyasəti nəticəsində Naxçıvan Böyük İpək yolunun müasir mərhələdə yenidən canlanan halqası kimi çıxış edərək iqtisadi yüksəlişin və regional inteqrasiyanın yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu strateji xəttin praktik müstəvidə reallaşdırılması isə nəqliyyat infrastrukturunun davamlı şəkildə təkmilləşdirilməsini zəruri edir. Məhz bu baxımdan Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həmin istiqamətdə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyır və regionun nəqliyyat şəbəkəsinin mərhələli və sistemli inkişafını təmin edir. Bu çərçivədə həm magistral yollar, həm də kənd və qəsəbələri birləşdirən daxili yol şəbəkələri yenidən qurulur. Yol yatağının möhkəmləndirilməsi, asfalt-beton örtüyünün keyfiyyətinin artırılması və relyefə uyğun mühəndis qurğularının quraşdırılması kimi həllər, infrastrukturun uzunmüddətli və sabit istismarına şərait yaradır.

Agentlik, muxtar respublikada 1,161 kilometr uzunluğunda ümumi istifadədə olan avtomobil yollarına və həmin yollar üzərində yerləşən 162 körpüyə xidmət göstərir. Bu yolların 269 kilometri respublika, 892 kilometri isə yerli əhəmiyyətli yollardan ibarətdir. Bununla yanaşı, agentlik muxtar respublikanın şəhər və kənd yaşayış məntəqələrində yerləşən, ümumi uzunluğu 2,952 kilometr olan bələdiyyə və icra hakimiyyətlərinin balansında olan yolları da diqqətdə saxlayır.

Bu geniş yol şəbəkəsinə fasiləsiz xidmət göstərilməsi, eyni zamanda onun mərhələli şəkildə yenilənməsi fəaliyyətin miqyasını və məsuliyyət yükünü aydın şəkildə nümayiş etdirir. Statistik göstəricilər isə görülən işlərin illər üzrə artan dinamika ilə həyata keçirildiyini təsdiqləyir. Belə ki, 1995-ci ildən bu günə kimi muxtar respublikada 2,664 kilometr avtomobil yolu əsaslı təmir olunub və 96 körpü tikilərək vətəndaşların istifadəsinə verilib. Bu rəqəmlər yol infrastrukturunun davamlı inkişafının ardıcıl dövlət siyasətinin nəticəsi olduğunu bir daha göstərir.

Muxtar respublikada müasir avadanlıqlarla təmin olunan asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalına imkan verib. Son illər Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin maddi-texniki bazası da xeyli möhkəmləndirilib, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınmasında mühüm rol oynayan müasir mexanizmlərlə təmin olunub. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaradıb və nəticədə müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunub.

Dövlət başçısının nəzarəti ilə həyata keçirilən ardıcıl tədbirlər sayəsində bu gün muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinə belə, ilin istənilən fəslində və günün istənilən saatında rahat gediş-gəliş mümkündür. Ən ucqar kəndlərə qədər uzanan asfalt yollar təkcə rahatlığı təmin etmir, həm də əhali üçün yeni imkanlar yaradır: kənd təsərrüfatı məhsullarının daşınması sürətlənir, turizm obyektlərinə gediş-gəliş asanlaşır. Yolların yenilənməsi həmçinin gələcək investisiyalar üçün əlverişli mühit formalaşdırır və bölgənin ümumi inkişaf strategiyasına dinamizm gətirir. Yenidən qurulan və ya təmir olunan yollar yalnız nəqliyyat hərəkətinin sürətini artırmır, həm də təhlükəsizliyi prioritet kimi diqqətdə saxlayır. Müasir standartlara uyğun yol nişanlarının, piyada keçidlərinin və işıq əksetdirici siqnal dirəklərinin quraşdırılması sürücü və piyadalar üçün daha təhlükəsiz hərəkət mühitinin formalaşmasına xidmət edir.

Təkcə 2025-ci il ərzində sözügedən dövlət proqramına uyğun olaraq 56 kilometr avtomobil yolu əsaslı təmir edilərək əhalinin istifadəsinə verilib. Bu rəqəmlər yol infrastrukturunun yenilənməsinin təsadüfi deyil, məqsədyönlü planlaşdırma və ardıcıl icra prinsiplərinə əsaslandığını təsdiqləyir.

Görülən işlər bir daha göstərir ki, Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi yol təsərrüfatına uzunmüddətli xidmət sahəsi kimi yanaşır. Yolların yenidən qurulması, təmiri və istismarı mərhələli şəkildə həyata keçirilir. Hər bir kilometr yolun dayanıqlı və keyfiyyətli olması isə agentliyin fəaliyyətində prioritet kimi müəyyən olunub.

Qeyd edək ki, ötən ilin sonundan etibarən muxtar respublikanın 95,6 kilometrlik avtomobil yolunda əsaslı təmir işlərinə də başlanılıb. Bu, irihəcmli layihə olmaqla yol infrastrukturunda genişmiqyaslı yenilənməni əhatə edir. Belə ki, Naxçıvan şəhərinin bir sıra məhəllə və küçələrində yol əsasının möhkəmləndirilməsi və suötürücü qurğuların quraşdırılması istiqamətində işlər aparılır. Cari ildə də yol infrastrukturunun yenilənməsi istiqamətində işlərin ardıcıl və planlı şəkildə davam etdirilməsi nəzərdə tutulur.

Bu yanaşma Prezident İlham Əliyevin yol infrastrukturuna verdiyi yüksək önəmin məntiqi davamıdır. Dövlət başçısının dediyi kimi: "Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir... Bu o qədər də asan məsələ deyildir. Yol tikintisi çox böyük peşəkarlıq tələb edir. Keyfiyyətli yol böyük ustalıq və əlbəttə ki, nəzarət tələb edir". Naxçıvanda həyata keçirilən layihələr də məhz bu prinsipə əsaslanaraq peşəkar yanaşma, ciddi texniki nəzarət və yüksək keyfiyyət standartları əsasında icra olunur.

Agentlik işin müasir standartlara uyğun icrasını təmin etmək üçün beynəlxalq təcrübədən də aktiv şəkildə yararlanır. Yol infrastrukturunun layihələndirilməsi, tikintisi və təhlükəsizliyi üzrə qabaqcıl texnologiyaların tətbiqi məqsədilə bir sıra xarici şirkətlər və mütəxəssislərlə əməkdaşlıq həyata keçirilir. Bu isə həm yol keyfiyyətinin yüksəldilməsinə, həm də uzunmüddətli və davamlı istismar imkanlarının təmin olunmasına xidmət edir.

İqtisad elminin atası hesab olunan Adam Smit "Xalqların sərvəti" kitabında qeyd etdiyi kimi, yaxşı yollar ticarəti stimullaşdıraraq ölkəni zənginləşdirir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın yenilənən yolları da məhz ölkəmizin davamlı inkişafına əvəzsiz töhfə verəcək.



***Əli İBRAHİMBƏYLİ,***
*Naxçıvan şəhəri*

# Baharın və Böyük qayıdışın addım səsləri bir-birinə qarışıb

**Yurdumuza bahar gəlir. Qış yuxusundan oyanan ana torpaq canlanır. Havadan bənövşə ətri duyulur. Baharın hər gəlişi möhtəşəm olur, bayram ovqatı doğurur. Amma bu yaz bir başqa yazdı. Bu yaz daha da xoşdu. Özəlliyi, türfə əlamətləri ilə çox fərqlidir.**

Ana təbiət sevimli qızı baharı hər il əziz bayram kimi qarşılayır. Sanki çölə, çəmənə zümrüd xalı sərilir, bağ-bağçalarda ağaclar çiçək açıb al-əlvan rənglərə bürünür, nəğməkar quşların cəh-cəhi ılıq yaz mehinin qanadlarında ətrafa yayılıb, ecazkar bir harmoniya yaradır. Pişvazına toy-bayramla çıxdığımız bu gələn yazın fərqli əks-sədası 30 il isti ocağına, doğma yurduna, isti eveşiyinə həsrət qalan soydaşlarımızın gerçəkləşən arzularında daha parlaq və həm də kövrək notlarla duyulur. 30 il Novruz tonqalları ətrafında edilən dualar, səslənən diləklər sonunda gerçəkləşdi.

Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə ordumuz Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq dövlətimizin ərazi bütövlüyünü təmin etdi. Düşmənlərin odlara qalayıb, xarabaya çevirdikləri şəhərlərimizin, kəndlərimizin sinəsini düşmən gülləsinə sipər edib şəhid olan qəhrəman oğullarımızın qisası layiqincə alındı. Qarabağ, Şərqi Zəngəzur əbədi azadlığına qovuşdu. Üstümüzə günəş doğdu. Xalq-Prezident-ordu vəhdəti şanlı zəfərimizin əsas mayası oldu. Eyni anda "Qarabağ Azərbaycandır!" hayqıran milyonların nifrətlə düyünlənmiş dəmir yumruqları düşmənlərimizin başına endi.

Xilaskar adını Azərbaycan dövlətinin tarixinə qızıl hərflərlə yazan Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində son beş ildə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti bərpa və quruculuq işləri gerçək bir möcüzə effekti doğurur. Dağların qoynunda, çətin relyef şəraitində inşa edilən beynəlxalq statuslu aeroportlar Murov dağını dəlib keçən, uzunluğu 11 kilometrdən çox olan, Avropada ikinci sayılan tunel, Ağdama çəkilən yeni dəmir yolu xətti (indi Ağdama sürət qatarı işləyir), müharibənin xarabalıqları üzərində yüksək zövqlə, müasir üslubda inşa edilən kəndlər, şəhərlər uğurla həyata keçirilən möhtəşəm infrastuktur layihələri, yeni qurulan fabriklər, zavodlar, bu hesaba açılan çoxsaylı yeni iş yerləri Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın inamlı və uğurlu addımları olaraq qürur doğurur.

Dağlar gözəlinə çevrilən Laçının bugünkü gözəlliyi göz qamaşdırır. Şuşanın hüsnünə tamaşa etmək üçün müxtəlif bölgələrdən hər gün dəstə-dəstə adamlar gəlir. Məhəllə-məhəllə böyüyən Ağdamın tezliklə ölkənin iri sənaye şəhərinə çevriləcəyini indi hamı reallıq kimi qəbul edir. Kəlbəcərdə, Ağdərədə, Füzulidə, Cəbrayılda, Xocalıda, Xocavənddə, Qubadlıda əsl övlad məhəbbətilə görülən işlər könül açır, ürək sevindirir....

Yurdumuza bahar gəlir. Səmənilər göyərdilir, bayram xonçaları tutulur. Qohum-qonşu, dost-tanış xoş təbəssümlə, şirin sözlərlə bayramlaşır, bir-birilərinə ən ülvi arzularını çatdırırlar. Otuzillik həsrətin sinəsinə dağ basıb doğma yurduna dönən əzizlərim, builki Novruz tonqallarını daha gur qalayın, qoy bu ocağın göylərə ucalan alovları hər yerdən görünsün. İllərin ağrı-acısını, qəmini-nisgilini bu müqəddəs ocağın qoynuna töküb yandırın. Durulun, təmizlənin, aydınlaşın, könlünüzü xoş duyğulara verin. Kindən, qəzəbdən, həsəddən uzaq bir dünya qurun. Bir nəğmədə deyildiyi kimi, ovuc içi qədər xoşbəxtlik yetər...



***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Daşkəsəndə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində gənclərlə görüş keçirilmişdir

**Daşkəsənin Heydər Əliyev Mərkəzində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində gənclərlə görüş keçirilmişdir.**

Gənclər arasında şəhərsalma və memarlıq sahəsinə marağın artırılması, müasir urbanizasiya prosesləri, dayanıqlı inkişaf prinsipləri və milli memarlıq irsinin qorunması istiqamətində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə keçirilən görüşdə diqqətə çatdırılmışdır ki, ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işləri regionların sosial-iqtisadi inkişafına mühüm töhfələr vermişdir. Bildirilmişdir ki, müasir şəhərsalma yalnız infrastrukturun yenilənməsi deyil, həm də ekoloji tarazlığın qorunması, estetik mühitin formalaşdırılması və vətəndaşların rahat yaşayışının təmin edilməsi deməkdir.

Sonra fəal gənclərdən Günay Mirzəzadə və Türkanə İsmayılova çıxış edərək ictimai işlərin səmərəli təşkili, yaşıllaşdırma və innovativ memarlıq məsələlərinin həlli ilə bağlı fikir və təkliflərini səsləndirmişlər.

Görüş zamanı gəncləri maraqlandıran suallar cavablandırıldıqdan sonra müzakirə olunan mövzu ilə bağlı videoçarx nümayiş etdirilmişdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

# Ermənistanda sülhə doğru atılan addımlar revanşistləri narahat edir

Azərbaycanın Cənubi Qafqaz regionunda yaratdığı yeni geosiyasi reallıqlar nəticəsində son dövrlər Ermənistanda sistemli dəyişikliklər müşahidə olunur. Ermənistanın parlament sədri Alen Simonyan, XİN başçısı Ararat Mirzoyan, parlamentin vitse-spikeri Ruben Rubinyan kimi yüksək çinli məmurların verdiyi açıqlamalar Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, kommunikasiyaların açılmasına, regionda iqtisadi əməkdaşlığın inkişafına yönəlmiş inamlı addımlar kimi qəbul edilir.



Ermənistan Baş naziri Nikol Paşinyan növbəti açıqlamasında Azərbaycanın Ermənistanla bərqərar sülhü qoruyub saxlamaqda qərarlı olduğunu bildirib. Paşinyan vurğulayıb ki, əldə olunan sülh ölkəyə yeni iqtisadi imkanlar yaradır, sərhədlərin və dəmir yollarının açılması, bütün qonşularla ticarət imkanlarının genişlənməsi region üçün tamamilə yeni şərait formalaşdırır.

Paşinyan bəyanatında bildirib ki, "Dəmir yolu və sərhədlərin açılacağını, bütün qonşularla ticarət olacağını təsəvvür edə bilirdinizmi? Bunlar bizim üçün də tamamilə yeni amillərdir. İnanıram ki, sülh artıq Ermənistanın iqtisadi, ictimai və sosial həyatına çox müsbət təsir göstərir. Bizim prioritetimiz sülh qovşağı olmaqdır".

Baş nazir onu da əlavə edib ki, Ermənistan indi "kənardan mərkəzə doğru" hərəkət edir, fiziki olaraq eyni yerdə qalsa da, regionla münasibətlərdə yeni yanaşmalar formalaşır. Düşmənçilik ocağını bir anda söndürmək mümkün olmasa da, proses artıq başlayıb və region ölkələrinin bir-birinə qarşı təsəvvürləri yaxşıya doğru dəyişir. Paşinyan bu prosesin siyasi missiyanın bir hissəsi olduğunu və sülhün qorunmasında Ermənistanda, eləcə də Azərbaycanda güclü iradənin mövcudluğunu vurğulayıb: "Açığı, bu, siyasi missiyamızın bir hissəsidir. İnanıram ki, biz bu missiyanı həyata keçirmək üçün güclü iradəyə malikik".

Hökumət rəsmilərinin bu mövqeyi, əslində, iki faktordan qaynaqlanır. Birincisi, 2026-cı ilin 7 iyun tarixinə təyin edilmiş parlament seçkilərində cəmiyyətə müharibəsiz gələcək, iqtisadi inkişaf vədi vermək və seçkiləri udmaqdır. İkincisi isə, kommunikasiyaların açılmasını təmin edərək, özünütəcrid siyasətini başa çatdırmaq, ölkənin çökməkdə olan iqtisadiyyatını regional layihələrə inteqrasiya etdirməkdir. Siyasi şərhçilərin fikrincə, sərhədlərin və dəmir yollarının açılması, regiondaxili ticarətin genişlənməsi, tranzit imkanlarının artması, bütün bunlar Ermənistan üçün uzun illər öz işğalçı siyasəti ucbatından blokada şəraitində formalaşmış acınacaqlı iqtisadi durumun dəyişməsi deməkdir. Bunları həzm edə bilməyən ərazi iddialı revanşistlər hər vəchlə sülh gündəliyini başqa formada təqdim etməyə çalışırlar.

Revanşistlər emosional manipulyasiyanı artırmaqla hökuməti gözdən salmağa çalışırlar. Bu da uzunmüddətli qarşıdurmanı, investisiya çatışmazlığı və təhlükəsizlik kimi problemləri dərinləşdirə bilər. Bu baxımdan, sülhün iqtisadi səmərəliliyi barədə açıq danışmaq artıq bu reallıqların etirafıdır. Əsas məsələ bəyanatlarla əməli addımlar arasındakı uyğunluqdur. Kommunikasiya xətlərinin açılması və hüquqi-siyasi çərçivənin sabitləşməsi Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına təkan verə bilər. Əks halda seçkiöncəsi revanşist təzyiqlər sülh prosesini ləngidə və ya qeyri-müəyyən mərhələyə keçirə bilər. Bu gün Paşinyanın qarşısında duran əsas məsələ sülhü siyasi bəyanatdan praktik addımlara yönəltməkdir.

Bununla da sülh Ermənistan hakimiyyəti üçün həm siyasi sağqalma mexanizmi, həm də iqtisadi inkişafın yeganə açarı rolunu oynayır. Bu ritorikanın xalq tərəfindən qəbul edildiyini keçirilən çoxsaylı sorğular, küçə reportajları da sübut edir. Sadə erməni vətəndaşı dərk edir ki, müharibə, revanşizm və qonşulara qarşı saxta iddialar ölkəyə və onun gələcəyinə heç nə vəd etmir. Bu səbəbdən də Baş nazir və hökumətin sülh siyasəti artıq hər ötən gün adi seçicilər arasında populyarlıq və dəstək qazanır. Təxminən 10 gün bunda əvvəl, fevralın 25-də Paşinyanın verdiyi açıqlamalarda "Naxçıvanla birləşmə" və "Tramp yolu" kimi konkret terminlərdən istifadə etməsi, İrəvanın artıq illərdir davam edən müqavimət taktikasından real əməkdaşlıq fazasına keçdiyini göstərir. Bu açıqlamalar seçki ərəfəsində həm daxili auditoriyaya, həm də beynəlxalq vasitəçilərə yönəlmiş mesajlardan ibarətdir.

Seçkilər ərəfəsində həm Moskvanın, həm də Qərbin müdaxiləsini nəzərə alan Paşinyan indidən ətrafındakılara mesaj göndərir ki, onun əsas hədəfi sülh və iqtisadi inteqrasiyadır. Bu seçkilərdə qələbə həm də Baş nazirin revanşistlər üzərində qələbəsi kimi Ermənistan tarixinə düşə bilər. Erməni siyasətçi açıqlamasında "Sülh müqaviləsinin mətni tam razılaşdırılıb və paraflanma mərhələsinə çatıb" fikrini səsləndirməsi, əslində, taktiki gedişdir. Bu, Paşinyan hökuməti üçün seçkilərdən əvvəl ən mühüm siyasi sığorta sayıla bilər. Yəni sənədin paraflanması müxalifətin mümkün "sənəd hələ dəyişə bilər" və ya "yeni güzəştlər olacaq" kimi manipulyasiyalarının qarşısını alır. Bu açıqlama ilə Baş nazir həm də seçicisinə açıq şəkildə bildirir ki, müzakirələr bitib və sənəd dəyişməzdir. Bu da revanşistlər tərəfindən xalqa aşılanan qeyri-müəyyənlik qorxusunu aradan qaldırmaq üçün gediş sayılır.

Lakin nəzərə almaq lazımdır ki, sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın prinsipial mövqeyi Ermənistan konstitusiyasında ərazi iddiası ilə bağlı bəndin çıxarılmasıdır. Paşinyan və digər erməni rəsmiləri dəfələrlə bu barədə açıqlama verərək, dolayı yolla bu dəyişikliyə də yaşıl işıq yandırıblar. Bu yaxınlarda Ermənistanda Konstitusiya Məhkəməsi Şurasının toplanması, müəyyən qərarlar qəbul etməsi də buna işarə edir.

Baş nazirin açıqlamalarının əsas hissəsi sülhə aiddir və erməni xalqına sülh şəraitində yaşamağın üstünlüklərini çatdırır. Paşinyan erməni cəmiyyətinin həssas nöqtəsinə toxunmaq üçün sülhü bir həyat norması kimi təqdim edir və xalqı reallıqlarla razılaşmağı tövsiyə edir. Bu da seçki öncəsi hakim partiyanın ən güclü uduşu hesab edilir. Baş nazirin "erməni xalqına çatdırmaq istədiyim budur ki, indi sülh var" fikri ilə yanaşı, "müstəqillik tarixindən bəri 2025-ci ilin ilk itkisiz il olması" barədə açıqlaması illərdir məğlubiyyət və qeyri-müəyyənlik içində boğulan cəmiyyətə verilən "reabilitasiya" mesajıdır. Bu, on illərdir erməni cəmiyyətinə revanşist qüvvələr tərəfindən aşılanan daimi müharibə qorxusunu dağıtmağa hesablanmış psixoloji manevrdir. Paşinyan həm də demək istəyir ki, əgər seçkilərdə revanşistlər yenidən hakimiyyətə qayıtsa, vəziyyət dəyişə bilər. İndi seçim erməni xalqındadır: Ya hakimiyyətin vəd etdiyi itkisiz sülh və iqtisadi inkişaf, ya da revanşistlərin qan və ölüm cəhdi. O, sülhə laqeyd yanaşmağın təhlükəli olduğunu vurğulamaqla, əslində, müxalifətin revanşist mövqeyini "yenidən ölüm və müharibə" ilə eyniləşdirir. Sərhəddəki sakitlik Ermənistan hakimiyyəti üçün, sadəcə, hərbi nailiyyət deyil, həm də seçicinin "təhlükəsizlik instinkti"nə birbaşa müraciət edərək siyasi ömrünü uzatmaq və seçkilərdə qələbəni təmin etmək üçün atılan psixoloji addımdır. Paşinyan xalqı inandırmağa çalışır ki, sülhü möhkəmləndirmək üçün atılan hər bir addım, o cümlədən "Tramp yolu" çərçivəsində Azərbaycanla kommunikasiyaların açılması, Ermənistanın yaşamaq və var olmaq üçün yeganə çıxış yoludur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**

**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**

# *Uzun Həsən və Ştefan Çel Mare: XV əsrdə Şərq-Qərb diplomatik əməkdaşlığının mühüm səhifəsi*

Rumıniyanın "Ziarul Natiunea" nəşrində dərc olunmuş geniş tarixi məqalədə XV əsrdə yaşamış Ağqoyunlu hökmdarı Uzun Həsən ilə Moldova knyazı Ştefan Çel Mare arasında formalaşmış siyasi və diplomatik münasibətlər ətraflı təhlil olunur.




AZƏRTAC xəbər verir ki, məqalədə həmin dövrdə Avropa və Yaxın Şərqdə güc balansının dəyişdiyi, yeni siyasi ittifaqların yarandığı vurğulanır. Bu şəraitdə Uzun Həsən təkcə regionun güclü hökmdarlarından biri deyil, həm də geniş diplomatik əlaqələr quran strateji düşüncəli lider kimi çıxış edirdi. Ştefan Çel Mare isə Moldovanın müstəqilliyini qorumaqla yanaşı, xarici siyasətdə fəal və çevik xətt yürüdən dövlət başçısı idi.

Nəşrin təhlilinə görə, iki lider arasında qurulan əlaqələr sırf formal münasibət deyil, qarşılıqlı maraqlara əsaslanan strateji əməkdaşlıq idi. Diplomatik yazışmalar, elçilərin qarşılıqlı səfərləri və siyasi koordinasiya bu tərəfdaşlığın əsas elementləri kimi göstərilir. Məqsəd regionda qüvvələr balansını qorumaq və hər iki dövlətin mövqeyini möhkəmləndirmək idi.

Məqalədə qeyd olunur ki, Uzun Həsənin beynəlxalq diplomatiyada fəal iştirakı onu dövrünün mühüm geosiyasi fiqurlarından birinə çevirmişdi. O, Qafqazdan Anadoluya qədər uzanan geniş ərazilərdə siyasi nüfuz sahibi idi və Avropa hökmdarları ilə əlaqələr qurmağa xüsusi önəm verirdi. Ştefan Çel Mare ilə əməkdaşlıq da bu geniş diplomatik strategiyanın tərkib hissəsi kimi təqdim edilir.

Tədqiqat müəllifi bildirir ki, Ştefan Çel Mare öz dövründə müxtəlif dövlətlərlə münasibətlər quraraq Moldovanın beynəlxalq mövqeyini gücləndirməyə çalışıb. Uzun Həsənlə əlaqələr isə Şərq və Qərb arasında siyasi körpü rolunu oynayıb. Bu əməkdaşlıq müxtəlif mədəni və siyasi mühitlər arasında qarşılıqlı anlaşma və ortaq maraqların formalaşdırılması baxımından əhəmiyyətli idi. Məqalədə həmçinin vurğulanır ki, XV əsr diplomatiyası müasir anlamda institusional mexanizmlərə malik olmasa da, hökmdarların şəxsi təşəbbüsü və strateji baxışı böyük rol oynayırdı. Uzun Həsən və Ştefan Çel Mare arasındakı münasibətlər də məhz bu çərçivədə fərqli coğrafiyalarda yerləşən iki siyasi mərkəz arasında məqsədyönlü və düşünülmüş əməkdaşlıq kimi qiymətləndirilir.

Tarixçilər qeyd edirlər ki, bu münasibətlər yalnız regional hadisə deyil, daha geniş geosiyasi kontekstin bir hissəsi idi. Şərqi Avropa ilə Qafqaz-Anadolu bölgəsi arasında diplomatik təmaslar XV əsrdə siyasi dinamikanın mühüm komponentinə çevrilmişdi.

Dərc edilən məqalə Uzun Həsən və Ştefan Çel Mare arasındakı əməkdaşlığı tarixi yaddaşın vacib elementi kimi təqdim edir və bu münasibətlərin həm Rumıniya, həm də Azərbaycan tarixi kontekstində araşdırılmasının əhəmiyyətini vurğulayır.

Qeyd edək ki, Uzun Həsən və Ştefan Çel Mare arasındakı əlaqələr bu gün də tarixçilər tərəfindən Orta əsr diplomatiyasının uğurlu nümunəsi kimi qiymətləndirilir və Şərq-Qərb münasibətlərinin formalaşmasında mühüm mərhələ hesab olunur.

# Küləkli hava şəraiti ilə əlaqədar sarı xəbərdarlıq verilib

Milli Hidrometeorologiya Xidməti martın 4-ü gündüzdən 5-i səhərədək Bakıda və Abşeron yarımadasında, eyni zamanda bəzi bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı xəbərdarlıq verib.




Xidmətdən AZƏRTAC-a verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında, Xızı, Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən, Neftçala, Salyan, Şirvan, Sabirabad, Hacıqabul, Qobustan, Kəlbəcər, Laçın, Zəngilan, Füzuli, Qazax, Ağstafa, Tovuz, Gəncə, Daşkəsən, Gədəbəy, Goranboy, Naftalan, Yevlax, Tərtər, Bərdə və Mingəçevirdə sarı xəbərdarlığa uyğun olaraq şimal-qərb küləyi əsəcək, küləyin sürəti saniyədə 13.9-20.7 metr təşkil edəcək.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**



"URBN AZ DEVELOPMENT" MMC-yə (VÖEN: 1305561191) məxsus tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri fəaliyyətinə dair 19.03.2019-cu il tarixli EL-67/2019 və EL-67/2019/1 saylı iki ədəd lisenziya itdiyi üçün etibarsız sayılır.


# *Qızıl medal qazanan güləşçi:* "Titulu qorumaq üçün əlimdən gələni edəcəyəm"

"Yarışa çox yaxşı hazırlaşmışdıq və nəticədə çempion oldum". AZƏRTAC xəbər verir ki, bu sözləri Albaniyanın paytaxtı Tiranada keçirilən reytinq turnirində qızıl medal qazanan Nihat Məmmədli (60 kiloqram) federasiyanın rəsmi saytına açıqlamasında deyib.



Yunan-Roma güləşi üzrə milli komandanın üzvü yarış və gələcək hədəflərlə bağlı təəssüratlarını bölüşüb: "Çəkisalma prosesi rahat keçdi. Uzun müddət yarışlarda iştirak etmədiyim üçün çəkisalmada problem yaşamadım. Ona görə də yarış vaxtı özümü çox yaxşı hiss edirdim. Güclü rəqiblər var idi. Amma görünür, mən daha hazırlıqlı idim. Bütün rəqiblərimə qalib gələrək çempion oldum. Finalda üz-üzə gəldiyim komanda yoldaşım Nihad Quluzadə ilə uzun illərdir bir yerdə məşq edirik. Görüşün başa-baş mübarizə şəraitində keçəcəyini bilirdim. Çünki bir-birimizi çox yaxşı tanıyırıq. Belə vəziyyətdə fərqli nəsə etmək çətin olur".

O, titulunu qorumaq üçün çalışacağını bildirib: "Qarşıdan Avropa çempionatı gəlir. Hədəf bəllidir: çempion olmaq. Bu yarışdakı titul Avropa çempionatı öncəsi böyük stimul oldu. Öz gücümə inanıram. İnşallah, üçqat Avropa çempionu olaram. Titulu qorumaq üçün əlimdən gələni edəcəyəm. Ötən il qabırğam sındı, gözlərimdə problem yarandı. Şükürlər olsun, indi tam hazıram. Heç bir zədəm, ağrım yoxdur. Avropa çempionatından sonra hədəfim indiyə qədər 60 kq-da medal qazana bilmədiyim dünya çempionatında uğur qazanmaq olacaq".


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3366
Sifariş 315

Qiyməti 60 qəpik